AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ
# RESPUBLİKA
TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ
6 DEKABR 2018-ci il CÜMƏ AXŞAMI № 273 (6306) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLICA-NEWS.AZ

## Finlandiya Respublikasının Prezidenti Zati-aliləri cənab Sauli Niinistöyə

Hörmətli cənab Prezident,

Finlandiya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirirəm.

*Hörmətlə,*

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 3 dekabr 2018-ci il.**

## Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsi işçilərinə “Əməkdar mühəndis” fəxri adının verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslərə “Əməkdar mühəndis” fəxri adı verilsin:

Cəfərov Nazim Kazım oğlu
Rüstəmov Rəşad Keykavuz oğlu
Səfərov Rizvan Ziyanur oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 5 dekabr 2018-ci il.**

## A.Ş.Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünün təsis edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 11 iyun tarixli 715 nömrəli Fərmanına uyğun olaraq **qərara alıram:**

**1.** Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Ağa-Bala Şamxal oğlu Hacıyevə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdü verilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 5 dekabr 2018-ci il.**

## Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsi işçilərinin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında rabitə və yüksək texnologiyalar sahəsində səmərəli fəaliyyətinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**“Tərəqqi” medalı ilə**

Həsənova Sahibə Məzahir qızı
Qasımov İsa Vəli oğlu
Mehyəddinov Ənvər Əlistan oğlu
Məmmədova Firuzə Novruz qızı
Pirmətov Fərhad Veysəl oğlu
Vəlibəyli Sevinc Mürsəl qızı

**“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə**

Məmmədov Novruz Qulu oğlu
Naibov Vidadi Vaqif oğlu.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 5 dekabr 2018-ci il.**

# Prezident İlham Əliyev Avstriyanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib





**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerlin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Bernd Aleksandr Bayerl fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Bernd Aleksandr Bayerl etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Avstriya arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayaraq, əməkdaşlığın daha da genişləndirilməsinin zəruriliyini bildirdi. Münasibətlərin inkişafında qarşılıqlı səfərlərin önəminə toxunan Prezident İlham Əliyev özünün Avstriya Respublikasına, Avstriyanın Federal Prezidenti Haynts Fişerin isə Azərbaycana səfərlərini məmnunluqla xatırladı. Siyasi əlaqələrin çox yaxşı səviyyədə olduğunu qeyd edən dövlətimizin başçısı iqtisadi sahədə, o cümlədən ticarət, investisiya sahələrində əməkdaşlığın genişləndirilməsi üçün yaxşı imkanların olduğunu dedi. Bu baxımdan Prezident İlham Əliyev Azərbaycanda uğurla fəaliyyət göstərən Avstriya şirkətlərinin sayının artdığını vurğuladı. Dövlətimizin başçısı Bernd Aleksandr Bayerlin diplomatik fəaliyyəti dövründə ikitərəfli münasibətlərin daha da inkişaf etdi-



rilməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Avstriya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Bernd Aleksandr Bayerl Avstriya Respublikasının Federal Kansleri Sebastian Kurtsun salamlarını və Avstriya hökumətinin ən xoş arzularını dövlətimizin başçısına çatdırdı. O, Bakıda diplomatik fəaliyyətə başlamasından məmnunluq hissi keçirdiyini qeyd edərək, Prezident İlham Əliyevin rəhbərliyi və birinci xanım Mehriban Əliyevanın fəal iştirakı ilə Bakıda yüksək zövqlə həyata keçirilən abadlıq və quruculuq işlərinin ona dərin təəssürat bağışladığını bildirdi. Bernd Aleksandr Bayerl səfir fəaliyyəti dövründə əlaqələrimizin daha da möhkəmləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Dövlətimizin başçısı Avstriyanın Federal Kansleri Sebastian Kurtsun salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və xoş arzularını Avstriyanın Federal Kanslerinə və Avstriya hökumətinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

## F.S.Abdullayevin “Şöhrət” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının məhkəmə orqanlarında səmərəli fəaliyyətinə görə Fərhad Sahib oğlu Abdullayev “Şöhrət” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 5 dekabr 2018-ci il.**

## Ş.B.Alxasovun 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında fəal iştirakına görə Şair Balaşərif oğlu Alxasov 2-ci dərəcəli “Vətənə xidmətə görə” ordeni ilə təltif edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 5 dekabr 2018-ci il.**

## “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamənin və Komitənin strukturunun təsdiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanının icrası ilə əlaqədar **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 14 may tarixli 95 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, N 5, maddə 327, N 12, maddə 983; 2011, N 2, maddə 85; 2017, N 5, maddə 769, N 12 (I kitab), maddə 2332) ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə”də aşağıdakı dəyişikliklər edilsin:

**1.** 8.24-1-ci bəndə “xaricdə” sözündən əvvəl “tabeliyində olan qurum vasitəsilə” sözləri əlavə edilsin.

**2.** 14.3-cü bəndə “qurumlarının” sözündən sonra “(“Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanı ilə müəyyən edilmiş hal istisna olmaqla)” sözləri əlavə edilsin.

**3.** 14.4-cü bəndə “tabeliyində” sözündən əvvəl “Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsinin tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılması haqqında” Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 6 iyul tarixli 170 nömrəli Fərmanı ilə müəyyən edilmiş hal istisna olmaqla,” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**
**Bakı şəhəri, 4 dekabr 2018-ci il.**

# Prezident İlham Əliyev Koreya Respublikasının Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Koreya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Opun etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Kim Tonq Op fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Kim Tonq Op etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında çox yaxşı əlaqələrin mövcud olduğunu və birgə səylərlə iqtisadi sahədə əməkdaşlığın daha da genişləndirilməsinin və ticarət dövriyyəsinin artırılmasının zəruriliyini qeyd etdi. Prezident İlham Əliyev Koreya Respublikasına dövlət səfərini məmnunluqla xatırladı və bu səfərin ikitərəfli münasibətlərimizin genişləndirilməsi işinə töhfə verdiyini vurğuladı. Dövlətimizin başçısı Azərbaycanda bir sıra Koreya şirkətlərinin sənaye, nəqliyyatın idarəedilməsi, şəhərsalma, arxitektura və digər sahələrdə uğurlu fəaliyyət göstərdiklərini bildirərək, kənd təsərrüfatı, ekologiya, təhsil, peşə ixtisasartırma kimi sahələrdə də əməkdaşlıq üçün əlverişli imkanların olduğunu dedi. Prezident İlham Əliyev Şərq-Qərb marşrutu üzrə yükdaşımalar istiqamətində Azərbaycanın müasir nəqliyyat infrastrukturu və tranzit potensialını nəzərə alaraq, Koreya tərəfinin də bu imkanlardan istifadə edə biləcəyini qeyd etdi.





Koreya Respublikasının ölkəmizə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Tonq Op Koreya Respublikasının Prezidenti Mun Ce-inin salamlarını dövlətimizin başçısına çatdırdı. O, ölkəmizə səfir təyin olunmasından məmnunluğunu ifadə etdi. Səfir ölkələrimiz arasında dostluq əlaqələrinin və iqtisadi-ticarət sahəsində əməkdaşlığın daha da artırılması üçün səylərini əsirgəməyəcəyini bildirdi.

Dövlətimizin başçısı Prezident Mun Ce-inin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Respublikasının Prezidentinə çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Əfqanıstanın Azərbaycanda yeni təyin olunmuş səfirinin etimadnaməsini qəbul edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Əfqanıstan İslam Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Xeyrullah Spelenayın etimadnaməsini qəbul edib.**



AZƏRTAC xəbər verir ki, səfir Xeyrullah Spelenay fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Xeyrullah Spelenay etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Əfqanıstan arasında əməkdaşlığın yüksək səviyyədə olduğunu qeyd edərək, Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qani ilə dəfələrlə görüşdüyünü məmnunluqla xatırladı. Prezident İlham Əliyev iki ölkənin beynəlxalq təşkilatlarda bir-birini dəstəklədiyini bildirdi, ölkələrimizin iqtisadi, humanitar və digər sahələrdə də əməkdaşlıq etdiyini vurğulayaraq, Azərbaycanın Əfqanıstanda sülhün və sabitliyin təmin olunması işinə töhfə verdiyini və Əfqanıstanda xidmət edən Azərbaycan hərbi qulluqçularının sayının artırıldığını qeyd etdi. Əfqanıstanda sülhün və təhlükəsizliyin bütün region üçün vacib olduğunu deyən dövlətimizin başçısı Azərbaycanın "ASAN xidmət" təcrübəsinin bu ölkədə uğurla tətbiq olunmasının önəmini qeyd etdi. Prezident İlham Əliyev ölkəmizdə yaradılmış müasir nəqliyyat infrastrukturu imkanlarına toxunaraq, Əfqanıstanın da Şərq-Qərb marşrutu üzrə Azərbaycanı Mərkəzi Asiya ölkələri ilə birləşdirən dəmir yolu layihələrindən faydalana biləcəyini bildirdi.





Səfir Xeyrullah Spelenay Əfqanıstan Prezidenti Məhəmməd Əşrəf Qaninin salamlarını dövlətimizin başçısına çatdırdı. Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin məzunu olduğunu qeyd edən səfir Azərbaycanla Əfqanıstan arasında ənənəvi dostluğun daha da inkişaf etdirilməsi üçün səylə çalışacağını diqqətə çatdırdı. Səfir Azərbaycanın Əfqanıstanda sülhə və təhlükəsizliyə verdiyi töhfəsinə və ikitərəfli əsasda ölkəsinə müxtəlif sahələrdə göstərdiyi dəstəyinə görə minnətdarlığını bildirdi. O, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın uğurlu inkişaf yolu keçdiyini qeyd edərək, ölkəmizin inkişaf təcrübəsinin Əfqanıstan üçün xüsusilə vacib olduğunu dedi. Xeyrullah Spelenay Əfqanıstanın Şərq-Qərb marşrutu üzrə Azərbaycanın nəqliyyat imkanlarından istifadə edərək, yükdaşımaların həyata keçirilməsində ölkəsinin maraqlı olduğunu vurğuladı.

Dövlətimizin başçısı Prezident Məhəmməd Əşrəf Qaninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Əfqanıstanın dövlət başçısına çatdırmağı xahiş etdi.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyində olub, ABŞ-ın 41-ci Prezidenti Corc Buşun vəfatı ilə əlaqədar başsağlığı verib

**Dekabrın 5-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinə gələrək ABŞ-ın 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verib.**




AZƏRTAC xəbər verir ki, Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki müvəqqəti işlər vəkili Vilyam Gill Azərbaycan Prezidenti İlham Əliyevi qarşıladı.

Dövlətimizin başçısı Amerika Birləşmiş Ştatlarının 41-ci Prezidenti, görkəmli dövlət xadimi Corc Herbert Uoker Buşun vəfatı ilə əlaqədar başsağlığı verdi, matəm kitabına ürək sözlərini yazdı.



Prezident İlham Əliyev Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill ilə söhbət etdi və ona başsağlığı verdi. Dövlətimizin başçısı mərhum Prezident Corc Buşun Azərbaycan-ABŞ ikitərəfli münasibətlərinin yaradılmasında və inkişafında rolunu xüsusi vurğuladı. Prezident İlham Əliyev mərhum Prezident Corc Buşun ulu öndər Heydər Əliyevlə yaxın münasibətlərini, vaxtilə onun Heydər Əliyevi öz evində qəbul etməsini xatırladı, bunun çox vacib və unudulmaz bir görüş olduğunu dedi. Ulu Öndərin ona göstərilmiş hörmətdən, səmimi görüşdən çox təsirləndiyini bildirdi. Dövlətimizin başçısı 2004-cü ildə keçirilən Afina Yay Olimpiya Oyunlarının açılış mərasimi ilə əlaqədar təşkil olunan qəbulda mərhum Corc Buşla görüşdüyünü və onunla söhbət etdiyini yada saldı.

Amerika Birləşmiş Ştatlarının Azərbaycandakı müvəqqəti işlər vəkili Vilyam Gill Prezident İlham Əliyevin səfirliyə gəlməsindən böyük şərəf duyduğunu bildirdi. O qeyd etdi ki, Corc Buş Azərbaycanın müstəqilliyini tanıyan və ölkəmizlə diplomatik münasibətlər quran Amerika Birləşmiş Ştatları Prezidenti kimi ölkələrimiz arasında güclü münasibətlərin təməlini qoyub.

**AZƏRTAC**

# Prezident İlham Əliyev Xalq rəssamı Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 5-də Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahova 1-ci dərəcəli "Əmək" ordenini təqdim edib.**



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Tahir Salahovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunduğunu, onun hələ əvvəlki dövrlərdə Sosialist Əməyi Qəhrəmanının "Qızıl Ulduzu"na da layiq görüldüyünü vurğuladı. Dövlətimizin başçısı 1-ci dərəcəli "Əmək" ordeninin müxtəlif sahələrdə görkəmli xidmətlərə görə verildiyini bildirdi. Tahir Salahovun müasir təsviri incəsənətin inkişafındakı rolunun bütün ictimaiyyət, xalqımız və dövlətimiz tərəfindən yüksək qiymətləndirildiyini deyən Prezident İlham Əliyev 1998-ci ildə ulu öndər Heydər Əliyevin Tahir Salahovu "İstiqlal" ordeni ilə təltif etdiyini vurğuladı. Dövlətimizin başçısı 2008-ci ildə ona Azərbaycanın ən yüksək ordeni olan "Heydər Əliyev" ordenini və 2015-ci ildə isə Heydər Əliyev Mükafatını təqdim etdiyini vurğuladı. Bu gün isə dünya şöhrətli rəssama "Əmək" ordeninin təqdim olunduğunu deyən Prezident İlham Əliyev özünün təşəbbüsü ilə yaradılan və üç dərəcəsi olan bu ordenin nisbətən yeni orden olduğunu və müxtəlif sahələrdə fəaliyyət göstərən görkəmli şəxslərə verildiyini bildirdi, Tahir Salahovun isə birbaşa 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif olunduğunu vurğuladı. "Siz bizim fəxrimizsiniz, Azərbaycan xalqının görkəmli oğlusunuz, siz həmişə öz sənətinizlə Vətənə sədaqətlə xidmət etmisiniz, Azərbaycanı, xalqımızın istedadını, bizim incəsənətimizi təbliğ etmisiniz, bizi bütün dünyada təmsil edirdiniz və edirsiniz", - deyən Prezident İlham Əliyev Tahir Salahovun ulu öndər Heydər Əliyevlə şəxsi münasibəti və dostluğunun olduğunu bildirərək bu səmimi və çox möhkəm dostluğun hələ Heydər Əliyev 1969-cu ildə respublikaya rəhbərlik etməzdən xeyli əvvəl başladığını vurğuladı. Dövlətimizin başçısı Heydər Əliyevin SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verəndən sonrakı ağır illərdə, səhhətində problemlər yarandığı vaxtlar məhz Tahir Salahovun onun yanında olduğunu deyərək onların Moskvadakı söhbətlərini, görüşlərini xatırladı, bütün bunların Heydər Əliyev üçün böyük mənəvi dəstək olduğunu bildirdi. Prezident İlham Əliyev dedi ki, həmin zamanlarda vaxtilə Heydər Əliyevin kömək etdiyi, irəliyə çəkdiyi çoxları kənara çəkilmişdilər, ən yaxşı halda isə susurdular, bəziləri isə onun əksinə çıxış edirdilər. Hər şeyə, dünya şöhrətinə özü nail olan Tahir Salahov isə Ulu Öndərin yanında idi. Dövlətimizin başçısı bunun çox qiymətli olduğunu və heç vaxt unudulmayacağını vurğuladı. Prezident İlham Əliyev illər keçdikdən sonra ona yenidən yüksək mükafatı təqdim etməkdən şad olduğunu bildirdi.



Sonra dövlətimizin başçısı İlham Əliyev 1-ci dərəcəli "Əmək" ordenini Tahir Salahova təqdim edərək təbriklərini çatdırdı.

Azərbaycanın və SSRİ-nin Xalq rəssamı, Sosialist Əməyi Qəhrəmanı, Dövlət mükafatları laureatı Tahir Salahov yüksək mükafata görə təşəkkürünü bildirdi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin hər zaman öz işini sevən, qeyri-adi, istedadlı bir şəxsiyyət olduğunu deyən Tahir Salahov həyat yolunda onunla dostluq münasibətlərindən böyük xoşbəxtlik duyduğunu söylədi. "Bizi incəsənət birləşdirmişdi", - deyən Tahir Salahov ulu öndər Heydər Əliyevin hər zaman incəsənətə və sənət adamlarına xüsusi qayğı ilə yanaşdığını bildirdi, onun bu sahə ilə bağlı çıxışlarının bütün incəsənət xadimlərində xoş təəssürat yaratdığını vurğulayaraq qeyd etdi: "Ulu Öndərin həssaslığı, mərdliyi məni heyrətləndirirdi. Belə bir şəxsiyyətlə işləmək, görüşmək mənim üçün böyük xoşbəxtlik idi". Tahir Salahov Prezident İlham Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə həmişə böyük qayğı və diqqət göstərdiyini vurğuladı və onun sənətinə verdiyi yüksək qiymətə və mükafata görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

**AZƏRTAC**

# Yaxın və doğma ümummilli lider

**Əsrlər boyu Azərbaycan xalqı müstəqillik amalları uğrunda mübarizə apardı, bu yolda çoxsaylı məhrumiyyətlərə düçar olsa da bu əqidəsindən, amalından dönməmdi, nəhayət, keçən əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyəti kimi tamam adlı azad, demokratik və dünyəvi təmələ malik dövlət quruldu. Bu dövlətin qurucusu olan insanlar elə bir bayraq yüksəltdilər ki, bu bayrağı 70 illik totalitar kommunist rejimi, totalitar kommunist ideologiyası onu Azərbaycan xalqının yaddaşından silə bilmədi. İkinci minilliyin sonunda Azərbaycan xalqı yüz illərlə arzuladığı, qazanıb saxlaya bilmədiyi müstəqilliyini qazandı, qorudu, saxladı.**



XX əsrin sonlarında Sovet imperiyasının dağılması ilə öz müstəqilliyini bərpa edən Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət qurmaq yoluna qədəm qoydu. Qısa bir zaman kəsiyində Azərbaycan xalqı bir çox məhrumiyyətlərdən keçdi, sivil dünyanın ayrılmaz bir hissəsinə çevrildi. Azərbaycan Respublikası müstəqillik əldə etdiyi ötən 27 il ərzində dünya birliyi ölkələri sırasında öz layiqli yerini tutdu. Bu gün Azərbaycan dünyanın ən yüksək inkişaf sürətinə, tempinə malik olan multikultural dəyərləri özündə ehtiva edən bir dövlətə çevrilmişdir. Avropa, Asiya ölkələri ilə iqtisadi əlaqələrin yüksək sürətlə inkişafı, Şərqlə Qərb arasında oynadığı rol onu çox güclü söz sahibi olan ölkə kimi tanıtmışdır.

Müasir Azərbaycan dövlətinin təşəkkül tapması, dayanıqlı olması, eləcə də hazırki səviyyəyə yüksəlməsi Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Heydər Əlirza oğlu Əliyevin titanik zəhmətinin nəticəsi idi. Öz azadlığına qərar vermiş Azərbaycanın müstəqilliyini təmin etmək, onu qorumaq, vətəndaş müharibəsinin od-alovundan çıxarmaq, qısa bir zamanda dünyada tanıtmaq onun xalqı qarşısında əvəzsiz xidməti idi.

İkinci dəfə müstəqillik əldə etmiş Azərbaycan dövləti ötən bu 27 il ərzində çətin və şərəfli inkişaf yolu keçdi. Müstəqil dövlət üçün zəruri olan bütün vəsilələri dahi insan, böyük şəxsiyyət, xalqının əvəzolunmaz lideri Heydər Əliyev yaratdı. O, xalqımızın qazandığı bəşəri dəyərləri siyasi qətiyyəti gücünə qoruyub saxladı, onu təhlükədən hifz etdi, eyni zamanda da, müstəqil dövlətçiliyin özülünü elə tökdü ki, sonrakı illərin ən təhlükəli məqamlarında belə bu müstəqil dövlət tab gətirə bildi, dayana bildi.

Azərbaycan dövlətinin belə bir monolitliyinin əsasında ulu öndərin ölkədə vətəndaş birliyi konsepsiyasının strateji-konseptual əsaslarının yaradılması ideyası durdu. O, xalqının əzm və iradəsini səfərbər etməyi, xalqını azərbaycançılıq ətrafında birləşdirməyi bacardı. Bütün dünyaya və eləcə də xalqına sübut etdi ki, müstəqil Azərbaycan dövləti o vaxt daimi yaşaya, əbədi və dönməz ola bilər ki, bunu bütün xalq arzulasın, istəsin. Deməli, müstəqil dövlətin varlığı üçün birinci vacib şərt xalqın iradə və əzminin mövcudluğu, habelə həmin keyfiyyətlərin səfərbər edilərək yeganə doğru məcraya yönəldilməsidir. Ulu öndər Heydər Əliyev bunu bacardı. Beləliklə, ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin təməlində duran xalqın istək və arzularını, iradə və əzmini mütərəqqi dövlətçilik ideyası ətrafında səfərbər etdi, dilindən, dinindən və millətindən asılı olmayaraq, Azərbaycan ərazisində yaşayan bütün insanların həyatı maraqlarını vahid maraq-dövlətçilik və azərbaycançılıq ətrafında birləşdirə bildi.

Heydər Əliyev Azərbaycan dövlətinin gələcək inkişaf yolunu Qərbə inteqrasiyada, demokratik inkişaf və hüquqi dövlət quruculuğunda və vətəndaş həmrəyliyində görürdü.

Müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi illər ərzində Heydər Əliyev Azərbaycan xalqının azadlıq ruhunu, gələcəyə inam eşqini özünə qaytardı. O, həyatının sonuna qədər xalqına sədaqətlə xidmət etdi, bütün həyat və fəaliyyətini Azərbaycan Respublikasının inkişafına, tərəqqisinə həsr etdi.

Ulu öndər Heydər Əliyevin Azərbaycana, regiona və dünyaya ciddi töhfələr verdiyi hamılıqla qəbul edilən bir faktdır. Heydər Əliyevin müəllifi olduğu "Əsrin müqaviləsi" nəticəsində həyata keçirilməsi mümkün olan Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz ixrac kəmərləri Azərbaycana həyat verən, onun yaşamasının və inkişaf etməsinin təminatçısı olan qan damarları idi. Bu kəmərlər vasitəsi ilə dünya bazarlarına çıxarılan karbohidrogen ehtiyatları Azərbaycana 100 milyonlarla dollar gəlir gətirdi ki, bu gəlirlərin də böyük bir hissəsi qeyri-neft sektorunun inkişaf etməsinə yönəldildi. Əldə edilən bu gəlirlərdən məqsədyönlü və düzgün istifadə edilməsi ölkəni regionun ən islahatçı, dinamik inkişaf edən dövlətinə çevirdi.

Beləliklə, sektorun prioritet elan edilməsi nəticəsində bu sahədə inkişaf tempi çox yüksəkdir. Bu gün Çini Avropa ilə birləşdirən ən təhlükəsiz və qısa "Şərq-Qərb" dəhlizi, Bakı-Tbilisi-Qars dəmir yolu, eləcə də, "Şimal-Cənub" nəqliyyat dəhlizi istismardadır. Beləliklə, Azərbaycan çox mühüm beynəlxalq nəqliyyat qovşağına çevrilmişdir. Bundan başqa, yuxarıda qeyd etdiyimiz neft-qaz ixrac kəmərləri, nəqliyyat dəhlizləri iqtisadiyyatın qan damarları olmaqla onlarca ölkəni biri-birinə bağlayan əməkdaşlıq dəhlizləri, əməkdaşlıq kəmərləri kimi də şöhrət tapdı. Son illərdə regionların inkişafı üçün yeni infrastruktur layihələrin həyata keçirilməsi fəal şəkildə davam etdirilir. Eyni zamanda, Azərbaycanda informasiya kommunikasiya texnologiyaları sürətlə inkişaf edir. Ölkəmiz dinamik inkişaf nəticəsində kosmik dövlətə çevrilir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2010-cu il 3 may tarixli sərəncamı ilə "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti (ASC) yaradılmışdır. "Azərkosmos" ASC qarşısında duran başlıca məqsəd Azərbaycan Respublikasında yeni texnoloji sənaye sahəsi olan kosmik sənayenin yaradılması və süni telekommunikasiya peykinin orbitə çıxarılması olmuşdur. "Azərkosmos" ASC Azərbaycan Respublikasının milli peyk operatoru olmaqla Cənubi Qafqazda ilk peyk operatoruna çevrilmişdir. Azərbaycan Respublikasında "Azerspace-1" telekommunikasiya peyki 8 fevral 2013-cü il tarixində Fransız Qvianasında yerləşən Kuru kosmodromundan geostasionar orbitə çıxarılıb. Yer səthinin məsafədən müşahidə peyki "Azərsky" isə 2 dekabr 2014-cü il də "Azərkosmos" ASC-yə təhvil verilib. 30 iyun 2014-cü ildə orbitə çıxarılan bu peyk 12 il istismarda olacaq. Azərbaycanın üçüncü telekommunikasiya peyki - "Azerspace-2" isə 20 illik istismar müddəti ilə 26 sentyabr 2018-ci il tarixdə Kuru kosmodromundan orbitə çıxarılmışdır. Hazırda iki telekomunikasiya və bir müşahidə peykimiz orbitdədir.



**Aydın QASIMOV,**
**hüquq elmləri doktoru, professor,**
**Milli Aviasiya Akademiyasının**
**iqtisadiyyat və hüquq fakültəsinin dekanı.**

Cənubi Qafqazda və regionda lider dövlət olmaq mühüm iqtisadi, siyasi və multikultural nailiyyətlərin müsbət nəticəsidir. Əldə edilən bu nailiyyətlər Azərbaycan xalqının ümummilli lideri, ulu öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kursun bəhrəsidir. Azərbaycan dövləti bu gün möhtərəm Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında ulu öndərin siyasi xəttinə sadiq qalaraq iqtisadiyyatın bütün sahələrində daha yüksək uğurlar qazanır. Bu gün qarşıda duran ümdə vəzifələrdən biri iqtisadiyyatın inkişafına güclü stimul verən ixrac məhsullarının çeşidi, həm də coğrafiyası baxımından şaxələndirilməsi, ərzaq, enerji təhlükəsizliyinin möhkəmləndirilməsi, özünün təminat səviyyəsinin yüksəldilməsi, məşğulluğun təmin olunması, qeyri-neft məhsullarının ixracının artırılması, idxaldan asılılığın azaldılması və digər strateji vəzifələrin həlli davamlı olaraq həyata keçirilir.

Ümumiyyətlə, ulu öndərin Azərbaycan xalqı qarşısında əvəzsiz xidmətlərindən biri də Azərbaycan xalqının gələcək tərəqqisini təmin edən İlham Əliyev kimi böyük siyasət xadimini yetişdirməsidir. Bu, əslində, Heydər Əliyev kimi dahi bir insanın vətən sevgisindən, siyasi peşəkarlığından, milli dəyərlərə daxilən bağlılığından irəli gəlir. Bu gün Heydər Əliyevin dövlət quruculuğu kursunu Prezident İlham Əliyev böyük uğurla davam etdirir.

Ümummilli lider Heydər Əliyevin başladığı inkişaf strategiyasının son 15 ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən böyük uğurla davam etdirilməsi sayəsində bugünkü iqtisadi cəhətdən güclü və qüdrətli Azərbaycan dövləti yaranıb. Yeni iqtisadi şəraitə uyğun həyata keçirilən makroiqtisadi siyasət, aparılan köklü islahatlar, görülən sistemli tədbirlər dünyada müşahidə olunan qlobal və regional risklərin neytrallaşdırılmasına imkan yaradıb, valyuta ehtiyatlarımız artıb, sosial proqramların icrası davam etdirilir. Hazırda müstəqil respublikamızın adı dünyanın ən islahatçı ölkələrinin sıralarındadır. İqtisadi imkanlarını ildən-ilə genişləndirən Azərbaycan dövlətinin beynəlxalq aləmdə nüfuzu artır və müstəqil Azərbaycan dövləti söz sahibinə çevrilir.

Bu gün rəsmi Bakının rəyi nəzərə alınmadan bölgədə heç bir layihə icra edilə bilməz. Azərbaycanın yerləşdiyi coğrafi məkan, təşəbbüsçüsü və iştirakçısı olduğu layihələr dövlətlər və xalqlar arasında körpü rolunu oynayır. Azərbaycan dövlətinin daxili və xarici siyasəti dünyada baş verən geosiyasi və iqtisadi proseslər və bu sahədəki, beynəlxalq təcrübə nəzərə alınaraq müəyyənləşdirilir.

Qloballaşma, sivilizasiyalararası dialoq, ümumbəşəri dəyərlərin tərkib hissəsi olan demokratik prinsiplər, habelə, cəmiyyətin inkişaf qanunauyğunluqlarından irəli gələn məsələlər ölkə Prezidenti İlham Əliyevin yürütdüyü siyasətin nəzəri və praktiki, eyni zamanda, konseptual əsaslarını təşkil edir. Sabitlik, dinamik inkişaf, həyat səviyyəsinin ildən-ilə yaxşılaşması bir daha təsdiq edir ki, bu siyasətin alternativi yoxdur. Bu siyasət Azərbaycanın milli maraqlarını təmin edir. Bu gün siyasi sabitlik hər bir ölkənin inkişafı üçün başlıca şərtdir. Azərbaycanda sabitliyin mənbəyi xalqdır, onun iradəsidir. Xalqın ölkə başçısının apardığı siyasətə inamdır. Artıq bütün dünya bilir ki, Azərbaycanda xalq-iqtidar birliyi sarsılmazdır. Ölkəmizin müasir inkişaf səviyyəsi, əldə edilən uğurlar onu deməyə əsas verir ki, qarşıdakı on illiklər ərzində xalqımızı firavan həyat, gözəl gələcək gözləyir. Bu inama əsas verən amil isə dahi şəxsiyyət Heydər Əliyev siyasətinin davam etdirilməsi xalqın bu siyasətə verdiyi böyük dəstəkdir. Bu gün ölkəmizdə həyata keçirilən siyasətin bəxş etdiyi nailiyyətlər xalqımızda böyük razılıq hissi, gələcəyə inam və əminlik hissi yaradıbdır.

Prezident İlham Əliyevin uzaqgörən, məntiqli, elmi əsaslara söykənən fəaliyyətinin siyasi-praqmatik müstəvidən real müstəviyə keçməsi bir daha təsdiq edir ki, dövlətimizin başçısının bitkin, siyasi, iqtisadi və sosial cəhətdən yüksək peşəkarlıqla əsaslandırılmış strateji fəaliyyət proqramları vardır. Siyasi və hüquqi liberallaşdırmaya, vətəndaş cəmiyyətinin inkişafına xidmət edən islahatların sürətləndirilməsi millətin intellektual potensialının reallaşdırılmasına, ölkənin tərəqqisinə və innovasiyalı modernləşdirməyə istiqamətlənmişdir. Bu gün biz azad, demokratik bir cəmiyyətdə yaşayır, müqəddəs torpağımızın keşiyini çəkir, sülh və dincliyə can atırıq. Dünyada heç bir çətinlik əbədi deyil. Tarix boyu bütün mübarizələrin sonunda ədalət zəfər çalmışdır. Elə buna görə də Azərbaycan qarşıda duran ümummilli məqsədlərin reallaşdırılması istiqamətində ardıcıl və sistemli fəaliyyət göstərən ölkə kimi dünyanın yüksəliş fenomeninə çevrilməkdədir. Yəni ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan naminə yalnız yaşadığı dövrü deyil, gələcəyi də düşünüb! Buna görə də ulu öndər Heydər Əliyev ümummilli lider kimi həmişəyaşardır, xalqın qəlbində, dövlətin bütün istiqamətlər üzrə aparılan uğurlu siyasətinin ruhundadır. Azərbaycan xalqının ümummilli lideri olan Heydər Əliyev sağlığında ölməzlik qazanmış bir dahi şəxsiyyətdir.

Son on beş ildə möhtərəm Prezidentimiz ona bəslənən ümidləri tam doğruldub, cəmiyyətin bütün gözləntilərini gerçəkləşdirməyə çalışıb. Xalqın maraq və mənafelərinə cavab verən qətiyyətli qərarlar qəbul edib, böyük uğurlara imza ataraq özünü əsl lider kimi təsdiqləyib. Yüksək intellekti, işgüzarlığı, təvazökarlığı, savadı, səmimiliyi, mütərəqqi idarəçilik prinsipləri ilə cəmiyyətdə böyük nüfuz sahibinə çevrilib. Azərbaycan elə bir inkişaf yolu seçib ki, ölkəmizin hazırkı uğurları gələcəyə də böyük ümidlər yaradıb. İndi Azərbaycanın yaxın illərdə inkişaf etmiş ölkələrlə eyni cərgədə dayanacağına kimsə şübhə etmir. Hər il əldə olunan uğurlar respublikamızı böyük sürətlə qarşıya qoyulan bu hədəfə yaxınlaşdırır. İndi Azərbaycan Yaxın Şərqin neft və qazla zəngin bəzi dövlətlərindən fərqli olaraq nəinki iqtisadiyyatının şaxələndirilməsinə nail olub, eyni zamanda, zəngin resursların gətirdiyi uğuları davamlı çoxşaxəli iqtisadi inkişaf, sabitlik və demokratikləşmə istiqamətinə yönəldə bilib. İqtisadi tərəqqi demokratik islahatların sürətini artırır. Demokratik cəmiyyətin varlığını şərtləndirən bütün amillər ölkəmizdə bərqərar olunub. Konstitusiyada əksini tapan maddələrin üçdə iki hissəsi insan hüquq və azadlıqlarının qorunmasına xidmət edir. Çoxpartiyalı sistem yaradılıb. Bu gün ölkəmizdə qırxdan artıq siyasi partiyanın, üç minə yaxın qeyri-hökumət təşkilatının qeydiyyatdan keçməsi, onların normal fəaliyyəti üçün təkmil qanunvericilik bazasının yaradılması da demokratik inkişafın, sabitliyin əsas göstəricilərindəndir. Ulu öndər Heydər Əliyev bildirirdi ki, nə qədər partiya olur-olsun, onların hamısı bir məqsədə - Azərbaycanın müstəqilliyini qorumaq torpaqlarımızı düşməndən azad etmək işinə xidmət etməlidir.

Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul olunması dövlətimizin demokratik prinsiplərə sadiqliyinin bariz nümunəsidir. Müstəqil Azərbaycan dünyanın ən nüfuzlu tribunalarından həqiqətləri beynəlxalq ictimaiyyətə çatdırır. Ulu öndər Heydər Əliyev bildirirdi ki, demokratiya bizim strateji kursumuzun əsas mahiyyətini təşkil edir. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Azərbaycanda sabitliyin, iqtisadi inkişafın davamlılığı yeni hədəflərə yol açmaqla yanaşı, yeni-yeni tərəfdaşlar qazanmasına da stimul verir. "Əsrin müqaviləsi"nin imzalanmasının 20 illiyində "Cənub Qaz Dəhlizi"nin təməlinin qoyulması, "Yeni əsrin müqaviləsi"nin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə Böyük İpək Yolunun bərpası çoxtərəfli əməkdaşlığın genişləndirilməsinə yönələn addımların əsas tərkib hissələridir. Təbii ki, bu uğurları şərtləndirən amillər sırasında iqtisadi və siyasi islahatların paralel şəkildə aparılması hər zaman xüsusi qeyd edilir. Ölkəmizin demokratiya təcrübəsi digər dövlətlərə nümunə göstərilir. Bu gün Azərbaycanın beynəlxalq əhəmiyyətli tədbirlər üçün əsas məkan seçilməsində də demokratik inkişaf əhəmiyyətli rol oynayır. Ölkəmizdə olan qonaqlar bizdə olan inkişafdan heyrətlərini gizlədə bilmirlər, dövlətimizin həyata keçirdiyi siyasətə xalqın dəstəyini böyük məmnunluqla vurğulayırlar. Azərbaycan çoxmillətli dövlətdir və bu xalqların hamısı bir ideya ətrafında birliyini həmişə ifadə edir. Ölkəmizdə yaranan demokratik şəraiti yüksək qiymətləndirən xarici qonaqlar etiraf edirlər ki, dünyada çox az dövlət tapılar ki, ölkəmizdə yaranan tolerantlıq, dini dözümlülüyün təmin olunması üçün buradakı qədər səylər göstərilsin. Azərbaycan milli-mənəvi dəyərlərin dünya mədəniyyətinin inciləri ilə vəhdət halında qorunub saxlanılmasına, təbliğinə, Avropa və Asiya, xristian və müsəlman dünyası ilə əlaqələrin güclənməsinə ən böyük töhfə verən ölkədir. Möhtərəm Prezidentimiz İlham Əliyevin qeyd etdiyi kimi, multikulturalizm başqa xalqın nümayəndəsinə və başqa dinə hörmətdir. Multikulturalizm ayrı-seçkiliyə yol vermir, əksinə, bütün xalqları birləşdirir. Bu mənada multikulturalizm bizim həyat tərzimizdir. 2016-cı il ölkəmizdə "Multikulturalizm ili", 2017-ci il isə "İslam Həmrəyliyi ili" elan edilmişdi.

2018-ci il Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən "Azərbaycan Xalq Cümhuriyyəti ili" elan edilmişdir. Ölkə Prezidentinin bu qərarından sonra Azərbaycanın hər yerində və eləcə də azərbaycanlıların yaşadığı xarici ölkələrdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi böyük təntənə ilə qeyd olunur. Azərbaycanda multikultural dəyərlər verilən qiymət artıq dünyanın inkişaf etmiş ölkələrində çox böyük hörmət və ehtiramla qeyd edilir. Dövlətimizin başçısı bildirir: "Multikulturalizm bizim üçün həyat tərzidir. Ancaq yenə də əgər biz ətrafda gedən hadisələrə, Avropada, Yaxın Şərqdə, digər bölgələrdə ayrı-seçkiliyə, ksenofobiyaya rəvac verən, güclənən amillərə nəzər salsaq görərik ki, bizim bu sahədəki siyasətimiz təkcə ölkədaxili üçün deyil, dünya üçün də çox önəmlidir. Təsadüfi deyil ki, bu gün Azərbaycan dünya miqyasında multikultural ideyaların tətbiqi işində nümunəvi ölkə kimi tanınır".

Dövlət başçısının böyük qətiyyətlə bəyan etdiyi "Azərbaycanın ərazi bütövlüyü təmin ediləcək" mövqeyi Azərbaycanın diplomatik mübarizədə qazandığı uğurlarla yanaşı, iqtisadi imkanlarımızın genişlənməsi fonunda ordumuzun qüdrətinin və gücünün artmasına əsaslanır. Azərbaycan Prezidenti qeyd edib ki, ordumuzun gücünü düşmən də gördü. Aprel döyüşləri bizim şanlı tariximizdir, bizim böyük qələbəmizdir. Azərbaycan ordusu Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının torpaqlarının bir hissəsini işğalçılardan azad etdi. Bu torpaqlara həyat qayıdır, bu torpaqlarda Azərbaycan bayrağı dalğalanır, insanlar öz yurdlarına qayıdır, yeni qəsəbələr salınır. Bizim hərbi qələbəmiz Azərbaycan xalqının gücünü göstərir, Azərbaycan xalqının yenilməz ruhunu göstərir. Bu onu göstərir ki, biz öz torpaqlarımızı azad edəcəyik. Buna nail olmaq üçün daha da güclü olmalıyıq və olacağıq. Cənab İlham Əliyev vurğulayıb ki, erməni vandalları, Ermənistan rəhbərliyi bizim tarixi abidələrimizə qarşı da soyqırımı törədib, məscidlərimizi dağıdıb. Amma onlar başa düşmürlər ki, biz dağılmış məscidləri qəlbimizdə yaşadırıq. Biz dağıdılmış məscidləri qəlbimizdə ucaltmışıq. Vandallar tərəfindən dağıdılmış Şuşa məscidinin bənzərini torpaqlar işğaldan azad olunandan sonra biz Cocuq Mərcanlıya gətirdik, orada tikdik. Bu gün bu torpaqlarda bizim insanlar ibadət edə bilərlər. Bu bir daha onu göstərir ki, biz heç vaxt işğalla barışmayacağıq, torpaqlarımızı azad edəcəyik. Cocuq Mərcanlı qəsəbəsi bizim qələbə rəmzimizə çevrilib. Cocuq Mərcanlıya qayıdan həyat hər bir Azərbaycan vətəndaşını sevindirir, onu qürurlandırır.

Sadalanan uğurlarımız bu gerçəkliyi bir daha təsdiqləyir ki, möhkəm təməl üzərində qurulan Azərbaycan iqtisadiyyatı inkişaf yolunda inamla irəliləyir. Azərbaycan malik olduğu təbii resurslara görə daim dünyanın diqqət mərkəzində olub. Amma bu diqqət və maraq müxtəlif dövrlərdə müxtəlif şəkildə özünü büruzə verib. Müstəqilliyimizin ilk illərində Azərbaycanla iqtisadi əlaqələrin qurulmasında maraqlı olan dövlətlər ölkədə ictimai-siyasi durumun gərginliyindən qoyacaqları investisiyaların təhlükəsizliyinə tam əmin deyildilər. Dahi şəxsiyyət Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı, ölkədə daxili sabitliyin yaradılması, bu tərəddüdləri aradan qaldırdı. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu gün ölkə iqtisadiyyatına qoyulan investisiyaların həcminin 231 milyarda çatması ölkəmizin bu gününə və gələcəyinə, ən əsası həyata keçirilən siyasətə inam nümayiş etdirir. Bununla yanaşı, Azərbaycanda müasir iqtisadi və sosial infrastruktur yaradılmış, ölkənin enerji təhlükəsizliyi tam, ərzaq təhlükəsizliyi isə əsasən təmin olunmuşdur. Əməkhaqları, pensiyalar, təqaüdlər ardıcıl şəkildə artırılır. Minlərlə istehsal obyekti, nəhəng zavod və fabriklər, texnoparklar tikilmiş, bir milyon yarım yeni iş yerləri yaradılmışdır. Nəhəng infrastruktur layihələrinin reallaşdırılması nəticəsində Azərbaycan regionun həm də nəqliyyat-logistika mərkəzinə çevrilmişdir. Həyata keçirilmiş regional inkişaf Dövlət proqramları paytaxtla bölgələr arasında kəskin fərqin aradan qaldırılmasına ciddi təsir göstərmişdir. Regionlar da paytaxt kimi dinamik inkişaf edib, müasirləşib. Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Azərbaycan dünyanın aparıcı maliyyə və iqtisadi institutlarında öncül sırada yer almağa başlamışdır. Hər il iyirmi mindən çox məcburi köçkün yeni müasir mənzillərlə təmin olunur. Dövlət heç bir yerdən yardım almadan, öz hesabına təbii fəlakətlərin ağır nəticələrini aradan qaldırır, ziyan çəkmiş ailələrə yardım edir, dağılmış infrastrukturu bərpa edir.

Bir sözlə, ölkə iqtisadiyyatına yatırılan investisiyalar, yaradılan yeni iş yerləri, sənaye istehsalının artımı, iqtisadiyyatın yeni istiqamətlərinin müəyyənləşdirilməsi və işlənməsi, xüsusilə innovasiyaların tətbiqi qarşıdakı dövrdə istər qeyri-neft sektorunun, istərsə də neft sənayesinin sürətli inkişafını təmin edəcəkdir. Bunlar isə xalqın rifahının yüksəlişi deməkdir.

Möhtərəm Prezidentimizin qətiyyətli fikirlərini yada salıram: "Bir daha demək istəyirəm ki, mənim dünyagörüşüm belədir, mənim fəlsəfəm belədir. Mən Azərbaycanı müasir dövlət kimi görmək istəyirəm. Zəngin, iqtisadi cəhətdən möhkəm, siyasi cəhətdən azad, müasir, dünyaya açıq, əməkdaşlığa hazır, öz mövqeyini müdafiə edən, qüdrətli ordu potensialına malik olan, öz ərazi bütövlüyünü bərpa edən ölkə kimi görmək istəyirəm və bu yolda əlimdən gələni edəcəyəm. Məni bu yoldan heç kim və heç nə döndərə bilməz". Ona bu hədəfin reallaşmasında həmişə arxalandığı xalqımız dəstək olmuş və olacaqdır. ■

# Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı monitorinqin nəticələri açıqlanıb




**Dekabrın 5-də keçirilən konfransda "Azərbaycanın teleradio məkanında ədəbi dilin qorunması" layihəsi çərçivəsində Milli Televiziya və Radio Şurası (MTRŞ) və Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının mütəxəssisləri tərəfindən teleradio yayımçılarının ədəbi dil normalarına riayət edilməsi ilə bağlı 2018-ci ilin avqust və sentyabr aylarında aparılmış monitorinqin nəticələri açıqlanıb.**

AZƏRTAC xəbər verir ki, Milli Televiziya və Radio Şurasının sədri Nuşirəvan Məhərrəmli hazırda Azərbaycan dilinin inkişafı üçün hərtərəfli imkan yaradıldığını qeyd edib. Bildirib ki, vaxtilə ümummilli lider Heydər Əliyev tərəfindən Azərbaycan dilinin Konstitusiyada dövlət dili kimi qəbul olunması dilimizə olan diqqətin və qayğının göstəricisidir. Prezident İlham Əliyev də Azərbaycan dilinin saflığına böyük önəm verir. "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" Fərman buna bariz nümunədir.

Nuşirəvan Məhərrəmli qeyd edib ki, Milli Televiziya və Radio Şurası teleradio məkanında dövlət dilimizin saflığının qorunmasına xüsusi diqqət yetirir. Vaxtaşırı təşkil olunan bu cür monitorinqlər ümumi işimizə böyük fayda verir. Teleradiolarda ədəbi dillə bağlı vəziyyətin heç də ürəkaçan olmadığını, jarqonların və dilimizə yad sözlərin işləndiyini deyən MTRŞ sədri son vaxtlar mövcud nöqsanların aradan qaldırılması üçün müəyyən iş aparıldığını diqqətə çatdırıb. O deyib ki, televiziya rəhbərləri əməkdaşları işə götürərkən onların Azərbaycan dili üzrə biliklərini yoxlamalı, aparıcılar tərəfindən dil normaları qorunmalıdır. Dil nöqsanlarına reklamlarda və tibbi proqramlarda daha çox rast gəlinir. Teleradionun cəmiyyətə böyük təsiri nəzərə alınmalı, onların dili hamıya nümunə olmalıdır.

Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov vurğulayıb ki, ana dili xalqın özünüqoruma instinktini gücləndirən, onu səfərbər edən və birləşdirən, həmçinin bir toplumu digərlərindən fərqləndirən ən etibarlı vasitədir. Odur ki, hər bir dövlət öz dilinin saflığının qorunması, inkişafı və zənginləşməsinə xüsusi qayğı göstərməlidir.

"Ana dilimiz azərbaycançılıq ideologiyasının da mühüm elementi, onun dual funksiya daşıyan siyasi və sosial-mədəni dayağıdır. Azərbaycan dili həm müstəqil dövlət kimi getdikcə güclənən ölkəmizdə, həm də dünyada yaşayan çoxmilyonlu soydaşlarımızın ünsiyyət vasitəsidir. Bu dil nə qədər saf və zəngin olarsa, mənəvi varlığımızı dolğun ifadə edərsə, milli birlik də bir o qədər möhkəm və sarsılmaz olar", - deyən Prezidentin köməkçisi qeyd edib ki, dövlət dili rəngarəng etnik və konfessional tərkibə malik müstəqil Azərbaycanın bütün vətəndaşlarının ürəkdən qəbul etdiyi və birləşdirici rol oynayan nadir mədəni-sosial fenomendir. Dövlət dili respublikamızda bərqərar olmuş milli həmrəyliklə cəmiyyətimiz üçün xarakterik olan multikulturalizmin vəhdətini təmin etməyə, azərbaycançılıq məfkurəsinin əsas məqsədlərindən birinə çatmağa imkan verir. Məhz bu amillər bizdən dövlət dilinin istifadəsinə və inkişafına daim həssaslıqla yanaşmağı tələb edir.

Azərbaycan dilinin keçdiyi inkişaf tarixindən danışan Əli Həsənov deyib ki, orta əsrlərdən başlayaraq Azərbaycan dili bizim yaşadığımız coğrafiyada və Avrasiyanın böyük bir geosiyasi məkanında yüksək hüquqi-siyasi status qazanaraq, mərkəzləşmiş Səfəvilər dövlətinin rəsmi dili olub. Sonrakı dövrdə də Azərbaycan dövlətçiliyinin ayrı-ayrı formaları çərçivəsində bu dil öz hüquqi-siyasi statusunu həmişə qoruyub saxlayıb.

Prezidentin köməkçisi ümummilli lider Heydər Əliyevin Azərbaycan dilinin xalqımızın ictimai-siyasi və mənəvi həyatında rolunu yüksəltmək istiqamətində gördüyü mühüm işləri xatırladaraq qeyd edib ki, məhz bunun nəticəsində ana dilimiz dövlət dili statusu qazanıb, onun mövqeləri əhəmiyyətli dərəcədə möhkəmlənib. Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi dil siyasətini hazırda Prezident İlham Əliyev ardıcıl surətdə davam etdirir.

Əli Həsənov bildirib ki, dövlət dilinin tətbiqi dairəsinin genişləndirilməsini və saflığının qorunmasını Prezident İlham Əliyev Azərbaycan dövləti qarşısında duran ən mühüm vəzifələrdən biri hesab edir. Təəssüf ki, kütləvi informasiya vasitələrində, o cümlədən elektron KİV-də dövlət dilinin norma və prinsiplərinə uyğun olmayan söz və ifadələr işlədilir. Bu amilləri nəzərə alaraq, Prezident İlham Əliyev 2012-ci ilin mayında "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramı" haqqında Sərəncam imzalayıb. Sərəncamda dilimizin müxtəlif səviyyələrdə, xüsusilə KİV-lərdə işlənməsində fonetik, sintaktik və semantik normalardan ciddi yayınmaların olduğu vurğulanıb, Azərbaycan dilinin internet sahəsində tətbiqinə diqqətin artırılmasının vacibliyi xüsusi qeyd edilib.

"Təəssüf ki, 2012-ci ildə imzalanmış Prezident Sərəncamında sadalanan nöqsanlara bu gün də təsadüf edilir. Buna görə də Prezident İlham Əliyev dövlət dilinin istifadəsi dairəsinin genişləndirilməsi və saflığının qorunması sahəsində mövcud problemlərin mütəmadi olaraq öyrənilməsi, monitorinqinin aparılması və nöqsanların aradan qaldırılması məqsədilə 2018-ci il noyabrın 1-də yeni Fərman imzalayıb. Həmin Fərmandan irəli gələn vəzifələrə uyğun olaraq müəyyən monitorinq aparılıb və düşünürəm ki, mütəxəssislərin iştirakı ilə monitorinqin nəticələri peşəkarcasına təhlil edilərək lazımi nəticələr çıxarılacaq", - deyə Prezidentin köməkçisi vurğulayıb.

Mətbuat Şurasının sədri, Milli Məclisin deputatı Əflatun Amaşov bildirib ki, Azərbaycan dili bizim mənəvi sərvətimizdir, dövlət atributlarımızdan biridir. Azərbaycan dili qədim və zəngin dildir. O, həmçinin əlavə edib ki, Mətbuat Şurası yarandığı gündən dilimizin qorunması məsələsinə xüsusi diqqət yetirir, mətbuatın dili ilə bağlı mütəmadi monitorinq keçirir. Təəssüf ki, mətbuatda da dil ilə bağlı çoxlu nöqsanlar var. Daha çox qrammatik pozuntular qeydə alınır. Qüsurlardan biri də əcnəbi sözlərdən yerli-yersiz istifadədir. Bu nöqsanlar jurnalistin qeyri-peşəkarlığından və dili yaxşı bilməməsindən irəli gəlir.

AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik Möhsün Nağısoylu qeyd edib ki, Azərbaycan dili dünyanın ən zəngin, səlis dillərindən biridir. Hər kəs dilə məsuliyyətlə yanaşmalıdır. Dili insana uşaqlıqdan sevdirmək lazımdır. Belə olan halda Azərbaycan ədəbi dilinin pozulması hallarına rast gəlmərik.

Akademik M.Nağısoylu bildirib ki, son zamanlar cəmiyyətdə rus dilindəki "uje" sözündən istifadə halları artıb. Şadlıq evlərinin adlarının yanına ingilis dilindəki "palace" sözünün yazılması nə məqsəd daşıyır? Bu, bizim dilimizdə "saray" deməkdir, bəs onda niyə saray deyil, "palace" yazırlar? Bizim dilimiz zəngindir, istənilən fikri ifadə etmək üçün kifayət qədər söz ehtiyatımız var.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli deyib ki, teleradio məkanında Azərbaycan ədəbi dilinin normaları xeyli pozulur. Bu gün radiolara qulaq asmaq olmur. Elə jarqonlardan istifadə edirlər ki, bunların efirdə işlədilməsi düzgün deyil. KİVDF mediada ədəbi dil ilə bağlı monitorinqlər aparılmasını dəstəkləyir və növbəti illərdə də bu layihələr davam edəcək.

Sonra monitorinq qrupunun mütəxəssisləri hesabatın nəticələri ilə bağlı açıqlama veriblər. Bakı Dövlət Universitetinin Azərbaycan dilçiliyi kafedrasının müəllimi Mehriban Əlizadə, AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktor müavini, filologiya üzrə fəlsəfə doktoru Baba Məhərrəmli, filologiya üzrə fəlsəfə doktorları Təranə Şükürlü, Aynel Məşədiyeva və başqaları qeyd ediblər ki, Azərbaycan dili lüğət ehtiyatı, qrammatik struktur, ifadə planının zənginliyi baxımından mükəmməl olsa da, onun tətbiqi və təkmilləşdirilməsi ilə bağlı bəzi nöqsanlar var. Bu gün televiziyalarda aparıcıların nitqində özünü göstərən bir sıra nöqsanlar, ədəbi dil normalarının pozulması faktları dili qorumaq kimi nəcib missiyanın həyata keçirilməsi işinə ciddi xələl gətirir. Mütəxəssislər diqqətə çatdırıblar ki, müasir cəmiyyətdə informasiyanın dövriyyəsi üçün geniş imkanlar vardır. Çoxçeşidli informasiyalar KİV-də, reklamlarda, sosial şəbəkələrdə və virtual reklamlarda insanların ixtiyarındadır. Bu gün hər bir şəxsin istənilən informasiyanı almaq üçün geniş imkanları var. Buna görə də dil vahidlərindən düzgün istifadə etmək əsas amillərdən biridir.

Daha sonra teleradio məkanında ədəbi dilin qorunması ilə bağlı aparılmış monitorinqin nəticələri açıqlanıb.

Qeyd edilib ki, monitorinqə 6 adda televiziya, 12 adda radio verilişləri cəlb olunub. Həmin verilişlər mövzu istiqamətinə görə təhlil edilib. Məlum olub ki, ədəbi dil normaları dilin bütün səviyyələri üzrə - istər fonetik, istər leksik, istər qrammatik, istərsə də üslubu səviyyədə pozulur.

Monitorinq nəticəsində qeydə alınan 4633 faktdan 2765-i fonetik, 511-i leksik, 684-ü üslubu səviyyədə norma pozuntusunun göstəricisidir. Televiziya verilişlərinin monitorinqi zamanı 3120 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 1695-i fonetik, 370-i leksik, 492-si qrammatik, 563-ü üslubu səviyyəyə aiddir. Radioların dilinin monitorinqi zamanı 1017 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 692-si fonetik, 102-si leksik, 144-ü qrammatik, 79-u üslubu səviyyəyə aiddir. Televiziya reklamlarının monitorinqi zamanı 108 norma pozuntusu faktı müəyyənləşdirilib ki, bunlardan 68-i fonetik, 21-i leksik, 15-i qrammatik, 4-ü üslubu səviyyədədir.

Dublyaj filmlərinin və verilişlərinin monitorinqi zamanı 388 norma pozuntusu faktı qeydə alınıb ki, bunlardan 310-u fonetik, 18-i leksik, 33-ü qrammatik, 27-si üslubu səviyyəyə aiddir.

Konfransda monitorinqin davam etdiriləcəyi diqqətə çatdırılıb.

**AZƏRTAC**

# Bakıda birinci Xəzər İnnovasiya Konfransı keçirilib

**Dekabrın 4-7-də keçirilən "Bakutel-2018" XXIV Azərbaycan Beynəlxalq Telekommunikasiya, İnnovasiya və Yüksək Texnologiyalar sərgi-konfransı çərçivəsində birinci Xəzər İnnovasiya Konfransı keçirilib.**



AZƏRTAC xəbər verir ki, konfransın bundan sonra ənənəvi olaraq hər il "Bakutel" beynəlxalq sərgisi çərçivəsində təşkil olunması nəzərdə tutulur.

Tədbir "Genişzolaqlı bağlantı", "Süni intellekt", "Əşyalar interneti", "Elektron xidmətlər", "İKT əsaslı startaplar və innovativ sahibkarlıq", "Dördüncü Sənaye İnqilabı", "Elmtutumlu istehsalat", "Kiberhazırlıq" kimi mövzuları əhatə edib.

İKT sektorunun bütün iştirakçıları arasında səmərəli əməkdaşlıq imkanları, həmçinin müvafiq sahə üzrə çağırışların müzakirə olunması məqsədilə regional platforma rolunu oynayacaq Xəzər İnnovasiya Konfransının təsis edilməsi təşəbbüsünü Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi irəli sürüb.

Belə bir təşəbbüsə səbəb Beynəlxalq Telekommunikasiya İttifaqının hesablamalarına əsasən, dünya əhalisinin 52 faizinin və ya 3,7 milyard insanın hələ də internetə çıxışının olmaması, rəqəmli fərqin aradan qaldırılması və inkişaf edən texnologiyaların tətbiqi üçün qurulacaq və ya təkmilləşdiriləcək infrastrukturun həcminin böyük və bahalı olmasıdır.

Xəzər İnnovasiya Konfransında çıxış edən Azərbaycan Respublikasının nəqliyyat, rabitə və yüksək texnologiyalar naziri Ramin Quluzadə qeyd edib ki, ilk dəfə təşkil olunan Xəzər İnnovasiya Konfransının mövzusu təsadüfi seçilməyib. Çünki dünyanın müxtəlif regionlarında, o cümlədən Xəzər və Qara dəniz regionu ölkələrində yeni elektron xidmətlərin, innovativ həllərin tətbiqi, ilk növbədə, dayanıqlı infrastrukturun qurulması və davamlı inkişaf etdirilməsini şərtləndirir. O qeyd edib ki, bunu nəzərə alaraq, builki konfransın mövzusu "Dayanıqlı İnkişaf naminə Rəqəmsal Bağlantı" kimi müəyyən olunub.

Nazir bildirib ki, simsiz genişzolaqlı şəbəkələrin dinamik inkişafına baxmayaraq, genişzolaqlı sabit şəbəkələr əhəmiyyətini qorumaqdadır: "Bildiyiniz kimi, simsiz genişzolaqlı şəbəkələr hələ də sabit şəbəkələrdən daha az trafik daşıyırlar və adətən daha aşağı sürət və etibarlılıq təklif edirlər. Bundan əlavə, mobil datanın artması faktiki olaraq sabit şəbəkələrə tələbatın artmasına səbəb olur. Elektrik və su təchizatı kimi, genişzolaqlı bağlantı infrastrukturu da artıq kritik infrastruktur hesab olunur və Azərbaycan Respublikası hökuməti ölkədə genişzolaqlı infrastrukturun qurulması, mövcud infrastrukturun təkmilləşdirilməsi və dayanıqlığının təmin olunması istiqamətində davamlı addımlar atır, GPON və LTE texnologiyalarının geniş tətbiqini nəzərdə tutan layihələr həyata keçirir", - deyə nazir vurğulayıb.

Nazir, həmçinin qeyd edib ki, görülən işlər sayəsində Azərbaycanda mobil rabitə abunəçilərinin sayı ölkə əhalisinin 106 faizini təşkil edir. Azərbaycan əhalisinin 80 faizindən çoxu internet istifadəçisidir, ev təsərrüfatlarının 68 faizində kompüter mövcuddur. Simsiz genişzolaqlı internet istifadəçilərinin nisbəti 73 faiz təşkil edir.

R.Quluzadə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2016-cı il 6 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"nə əsasən, 2020-ci ilədək 700-800 MHz tezlik diapazonunun LTE xidmətləri üçün ayrılmasının nəzərdə tutulduğunu bildirib. "Hazırda bununla bağlı tərəfimizdən texniki hazırlıq işləri həyata keçirilir, həmçinin beynəlxalq təcrübəyə əsasən radiotezliklərin hərraclar vasitəsilə ayrılması üçün qanunvericiliyə dəyişikliklər üzrə təkliflər paketi hazırlanır".

Nazir deyib ki, aşağı tezlik diapazonunun auksion əsasında LTE xidmətləri üçün ayrılması telekommunikasiya operatorlarının investisiya xərclərini azaldacaq, telekommunikasiya bazarının daha da liberallaşmasına və LTE texnologiyalarının geniş tətbiqinə şərait yaradacaq.

O, eyni zamanda vurğulayıb ki, Azərbaycan Respublikası hökuməti region ölkələrində, xüsusilə açıq dənizlərə çıxışı olmayan ölkələrdə genişzolaqlı infrastrukturun inkişafına töhfə verəcək layihələrin təşəbbüskarı qismində çıxış edir.

"Bu məqamda mən təşəbbüskarı olduğumuz və BMT Baş Məclisinin 3 qətnaməsi ilə dəstəklənən "Trans-Avrasiya Super İnformasiya Magistralı", qısaca TASİM layihəsinə xüsusi toxunmaq istərdim. TASİM layihəsinin məqsədi əsasən Qərbi Avropadan Şərqi Asiyaya qədər Avrasiya ölkələrini əhatə edən transmilli fiber-optik xəttin çəkilməsidir. Layihə Frankfurt şəhərindən Honkonq şəhərinə istiqamətlənən əsas tranzit xəttinin qurulmasını nəzərdə tutur. Bu xətt Avropanın və Asiyanın ən böyük informasiya mübadiləsi mərkəzlərini birləşdirəcək. TASİM layihəsinin reallaşdırılması Avrasiyada, xüsusilə də açıq dənizlərə çıxışı olmayan ölkələrdə rəqəmsal uçurumun aradan qaldırılmasına xidmət edəcək. Əminəm ki, TASİM və Xəzər İnnovasiya Konfransı kimi təşəbbüslər region ölkələrində rəqəmsal həllərin inkişafına və regional əməkdaşlığa öz töhfəsini verəcək", - deyə, nazir əlavə edib.

Əfqanıstanın rabitə və informasiya texnologiyaları naziri Şahzad Gul Ayrobi bildirib ki, hazırda Avrasiyada bir çox ölkənin açıq dənizə və mövcud olan genişzolaqlı internet magistrallarına çıxışı yoxdur. Bu baxımdan Xəzər İnnovasiya Konfransı rəqəmsal bağlantı həllərinin biznes çevrələrinə və vətəndaşlara verəcəyi töhfələr baxımından böyük əhəmiyyətə malikdir. Konfrans İKT sektorunda qlobal çağırışların və yeni nailiyyətlərin müzakirəsi üçün əlverişli platformadır. O, dünyada Azərbaycan brendi kimi tanınan "ASAN xidmət"in əhəmiyyəti və üstünlüklərindən də danışıb.

Xəzər İnnovasiya Konfransının Şərq və Qərb arasında körpü rolunu oynadığını deyən İranın rabitə və informasiya texnologiyaları naziri Məhəmməd Cavad Azəri Cəhromi bildirib ki, Bakıda keçirilən bu əhəmiyyətli konfrans regionun potensialını ortaya çıxaracaq. Azərbaycan, Türkiyə, Rusiya və İran arasında İKT sahəsində əməkdaşlıq əlaqələrinin qurulması, innovasiya tətbiqlərinin genişləndirilməsi qlobal əhəmiyyət daşıyır. Bu dörd dövlət regionda startapların təşkil edilməsində də mühüm addımlar ata bilər.

Onun sözlərinə görə, İKT sənayesində innovasiyaların tətbiqi dinamik inkişaf üçün yeni imkanlar açır. Bu gün startaplar dünyanın, eləcə də İranın innovativ inkişafının əsas konturlarını müəyyən edir. İranda startapçılar tərəfindən 10 mindən çox tətbiq yaradılıb. "Biz Azərbaycanla mütəmadi olaraq startaplara zəruri dəstəyin göstərilməsi sahəsində birgə əməkdaşlığı müzakirə edirik. Bugünkü tədbirə və Xəzər İnnovasiyalar Konfransının təşəbbüsünə görə təşəkkür edirəm, konfransın davamlı olacağına ümid edirəm və qeyd etmək istəyirəm ki, İran bu beynəlxalq tədbirin işinə dəstək verəcək".

Nazir qeyd edib ki, "Bakutel" sərgisi texnologiya sahəsində iqtisadi münasibətlərin inkişafına, qarşılıqlı əməkdaşlıq və dostluq əlaqələrinin şirkətlər üçün də yeni müstəviyə çıxarılmasına təkan verən sərgidir.

Türkiyənin nəqliyyat və infrastruktur naziri Mehmet Cahit Turhan isə deyib ki, ölkəsi İKT sahəsində mühüm nailiyyətlər əldə edib: "Bu konfrans regionda və qlobal miqyasda İKT sektorunun iştirakçısı olan şirkətlərin təcrübə mübadiləsi aparmalarına töhfə verəcək. Həmçinin bu platforma yeni əməkdaşlıqlara vəsilə olacaq".

Nazir "Bakutel-2018" sərgisində İKT sektoru üzrə təqdim olunan ən son yenilikləri yüksək qiymətləndirib. O bildirib ki, Türkiyə Azərbaycanda bütün sahələrdəki inkişafı təqdir edir və eləcə də, İKT sektorundakı inkişafı yüksək qiymətləndirir.

"Huaei Technologies" şirkətinin vitse-prezidenti Qreqori Foks öz çıxışında bildirib ki, bu gün bütün dünyada sənaye rəqəmsallaşdırılır. Təşkilatlar, dövlət strukturları bu rəqəmsallaşdırılmanın əsas iştirakçılarıdır. Onun sözlərinə görə, müşahidələr göstərir ki, 2020-ci ilədək dünya iqtisadiyyatı sürətlə inkişaf edəcək.

Regional platforma rolunu oynayan konfrans işini "Dayanıqlı inkişafın təmin edilməsində genişzolaqlı bağlantının rolu: çağırışlar və imkanlar" və "Genişzolaqlı mobil internetin gələcəyi: 5G və sonrası" mövzularında plenar sessiyalarla davam etdirib. Sessiyalarda İKT sektorunun iştirakçıları arasında səmərəli əməkdaşlıq imkanları, həmçinin müvafiq sahə üzrə çağırışlar müzakirə olunub.

Sessiyalarda Azərbaycan Respublikası nəqliyyat, rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə, Birləşmiş Millətlər Təşkilatının Asiya və Sakit Okean Regionu üzrə iqtisadi və sosial Komissiyasında İnformasiya və Kommunikasiya texnologiyaları və inkişaf bölməsinin rəhbəri Atsuko Okuda, "Cisko Systems" şirkətinin ölkələrin rəqəmsalaşdırılması üzrə Akselerasiya Proqramının qlobal əməliyyatlar direktoru Enriko Albertin, "Türk Telekom" İnternational şirkətinin baş icraçı direktoru Mehmet Toros, "Türkcell" şirkətinin baş icraçı direktoru Kaan Terzioğlu və digərləri mövzu ətrafında fikir mübadiləsi aparıblar.

Məlumat üçün bildirək ki, Beynəlxalq Telekommunikasiya İttifaqının təxminlərinə görə, növbəti 1.5 milyard insanın bağlantı ilə təmin edilməsi təqribən 450 milyard ABŞ dolları həcmində vəsait tələb edir.

GSM Assosiasiyasının təxminlərinə əsasən isə, 2020-ci ilədək dünya əhalisinin 4.1 milyardı LTE xidmətlərindən istifadə edəcək. Həmçinin ehtimallara görə, 2021-ci ildə "5G" xidmətlərindən istifadə edənlərin sayı 740 milyona çatacaq.

Bütün bunlarla yanaşı, Avrasiyanın bir çox ölkəsinin açıq dənizlərə və mövcud olan genişzolaqlı internet magistrallarına çıxışının olmadığı bir şəraitdə rəqəmli bağlantı həlləri biznes dairələrinə və vətəndaşlara verəcəyi töhfələr baxımından çox böyük əhəmiyyətə malikdir.

Xəzər İnnovasiya Konfransı da məhz rəqəmli fərqliliyin azaldılması, xarici investisiyalar üçün rəqəmli bağlantı imkanlarının yenidən nəzərdən keçirilməsi və biznes səmərəliliyinin təmin edilməsi məqsədilə hökumət nümayəndələrini, sənaye liderlərini, tənzimləyici qurumların və beynəlxalq təşkilatların rəsmilərini, o cümlədən regionun ən böyük telekom və peyk operatorlarının rəhbərlərini bir araya gətirib.

**AZƏRTAC**

*Armela Krasniqi:*

# Feyk xəbərlərlə birgə mübarizədə səylərin gücləndirilməsi zərurətə çevrilib



**Yanlış xəbərlər bütün dövlətlər və cəmiyyətlər üçün ciddi təhdid yaradır. Feyk xəbərlərin qloballaşması və onlardan kommersiya məqsədilə, siyasi kampaniyalar üçün istifadə çox təhlükəli vəziyyətə gətirib çıxarıb.**

Bu fikirləri AZƏRTAC-a açıqlamasında Albaniya Teleqraf Agentliyinin baş direktoru xanım Armela Krasniqi söyləyib.

Baş direktor qeyd edib ki, bütün bunları nəzərə alaraq yanlış məlumatlandırmaya qarşı ciddi mübarizə aparmaq lazımdır. Feyk xəbərlərin yayılmasının qarşısının alınması üçün ənənəvi KİV-lər, xüsusilə informasiya agentlikləri sıx birləşməli, birgə mübarizə daha da gücləndirilməlidir.

Armela Krasniqi yanlış məlumatlandırma ilə mübarizəyə həsr olunan tədbirlərin vacibliyini vurğulayaraq deyib: "Bu ilin oktyabrında VI Bakı Beynəlxalq Humanitar Forumu çərçivəsində AZƏRTAC tərəfindən təşkil edilmiş "Yanlış məlumatlandırma siyasəti - müasir dünyada sabitliyə təhdid" mövzusunda keçirilən işçi sessiyada çox faydalı müzakirələr aparıldı, maraqlı ideya və təkliflər səsləndirildi. Mən də həmin sessiyada çıxış etdim. Yeri gəlmişkən, məni sessiyaya dəvət etdiyi üçün AZƏRTAC-ın İdarə Heyətinin sədri Aslan Aslanova təşəkkür edirəm. Həmin sessiyada iştirak mənim üçün çox önəmli idi. Mən uzun müddətdir hamımızı narahat edən yanlış məlumatlandırmaya qarşı mübarizədə belə tədbirlərin təşkilinin çox vacib olduğu qənaətinə gəldim və Albaniyaya qayıdan kimi "İnformasiya agentlikləri feyk xəbərlərə qarşı" adlı konfrans təşkil etmək təşəbbüsünü irəli sürdüm. Bir sözlə, Tirana konfransını Bakı sessiyasının davamı hesab etmək olar. Ümid edirəm ki, AZƏRTAC və Albaniya Teleqraf Agentliyindən sonra digər ölkələrin xəbər agentlikləri də bu mövzuda tədbirlər təşkil edəcək. Bu, çox vacibdir. Əgər biz həqiqətən də feyk xəbərlərin yayılmasının qarşısını almaq istəyiriksə, bu məsələ daim diqqətdə saxlanılmalı, birgə mübarizə yolları araşdırılmalı və konkret nəticələr əldə olunmalıdır".

**AZƏRTAC**

# Azərbaycanın energetika naziri OPEC Konfransının prezidenti ilə neft bazarının cari vəziyyətini müzakirə edib



**Vyanada səfərdə olan energetika naziri Pərviz Şahbazov OPEC Konfransının prezidenti, Birləşmiş Ərəb Əmirliklərinin energetika naziri Suhail Mohamed Al Mazrouei ilə görüşüb.**

Energetika Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə qlobal neft bazarının cari vəziyyəti nəzərdən keçirilib. Neftin ucuzlaşmasının qarşısının alınması, bazarda sabitliyə nail olmaq məqsədilə mümkün variantlar üzrə müzakirə aparılıb. Bildirilib ki, hazırda OPEC+ ölkələrinin neft istehsalını azaltmaları təklifi səsləndirilir. Lakin neft bazarının gələcək inkişaf istiqaməti ilə bağlı fikirlər OPEC-ə üzv və kartelə daxil olmayan ölkələrin Nazirlərinin Birgə Monitorinq Komitəsinin bugünkü iclasında aydınlaşacaq.

Söhbət zamanı Azərbaycanın OPEC+ əməkdaşlıq formatında rolu, eləcə də Birləşmiş Ərəb Əmirlikləri ilə ölkəmiz arasında enerji sahəsində əməkdaşlıq məsələlərinə dair geniş fikir mübadiləsi aparılıb.

**AZƏRTAC**

# Kitabxana bəşəriyyətin mədəniyyət və elm xəzinəsidir

## *Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illiyi qeyd edilib*





**Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının 90 illiyinin qeyd edilməsi kitabsevərlər üçün əsl bayramdır. Gənclərdə mütaliəyə həvəsin formalaşması, onlarda kitaba maraq və hörmət yaratmağı qarşıya məqsəd qoyan kitabxana, yeni nəslin bilik və savadlarının artırılmasında böyük rol oynayır.**

AZƏRTAC xəbər verir ki, bu sözləri dekabrın 5-də Respublika Gənclər Kitabxanasının 90 illiyinə həsr edilmiş tədbirdə mədəniyyət naziri Əbülfəs Qarayev deyib.

Azərbaycan Musiqili Teatrında reallaşan tədbirdə kitabxananın son illər öz fəaliyyəti ilə seçildiyini söyləyən nazir bildirib ki, burada bir sıra təlim kursları təşkil edilir, yeni layihələr reallaşdırılır. Kitabxana fəaliyyətində hər zaman innovativ yanaşmalarla rəqabət aparır. Kitabxananın bazası o qədər genişdir ki, burada həm Azərbaycanın, həm də digər ölkələrin hüquq bazası haqqında məlumat almaq mümkündür.

"Bir çox ictimai qurumlarla geniş əlaqə quran kitabxana gənclər üçün faydalı və lazımlı olan layihələrə imza atır. İnanıram ki, Respublika Gənclər Kitabxanası həmişəki kimi, gələcəkdə də humanitar baza rolunu oynamaqla yanaşı, geniş spektrdə fəaliyyət göstərəcək. Azərbaycanda kitabxana işinə dövlət tərəfindən hər zaman diqqət göstərilib və bu ənənə bu gün də davam edir. Ulu öndər Heydər Əliyev gənclərimizin savadlı olması, onların biliklərinin artırılmasına böyük önəm verirdi. Bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun nəticəsidir ki, Respublika Gənclər Kitabxanasının dörd əməkdaşına dövlət başçısının müvafiq Sərəncamı ilə "Tərəqqi" medalı verilib. Bu gün ölkədə fəaliyyət göstərən kitabxana şəbəkələri təkmilləşir, inkişaf edir və imkanlarını genişləndirir. Bu yaxınlarda Azərbaycan Milli Kitabxanasının 90, Respublika Uşaq Kitabxanasının 50 illiyini qeyd etdik. Eyni zamanda, ölkəmizdə kitabxanaçıların qurultayları, simpoziumları, "dəyirmi masa"ları keçirilir. Bir sözlə, ölkəmizdə bu sahədə çoxlu işlər görülür, bu mənada, Respublika Gənclər Kitabxanası da bu işə töhfəsini verməkdə davam edir, üzərinə düşən vəzifələri uğurla yerinə yetirir. Bir çox kitabxanalarımız da beynəlxalq əməkdaşlığını genişləndirir", - deyə Əbülfəs Qarayev bildirib.

Sonra Respublika Gənclər Kitabxanasının bir sıra əməkdaşlarına Mədəniyyət Nazirliyinin fəxri fərmanları təqdim olunub.

Azərbaycan Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Cəmilə Səttarova dövlət başçısı tərəfindən kitabxana işinə göstərilən diqqətdən söz açıb. Deyib ki, ölkəmizdə kitabxanaçılıq sahəsi inkişaf edir, bu istiqamətdə yeni layihələr reallaşdırılır və yeni üfüqlər açılır: "Kitabxana bəşəriyyətin mədəniyyət və elm xəzinəsidir. Bu gün münasibətilə Respublika Gənclər Kitabxanası ilə yanaşı, digər kitabxanalarımızda da çalışan hər bir kitabxanaçını təbrik edirəm".

Kitabxananın direktoru Oruc Quliyev rəhbəri olduğu qurumun keçdiyi tarixi yola nəzər salıb.

Bildirib ki, bu gün ölkəmizdə 90 yaşı olan az sayda kitabxanalardan biri olan C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası Azərbaycanın mədəni-maarif sahəsinin inkişafında əvəzsiz rol oynayır. Azərbaycan gəncliyinin hərtərəfli inkişafı, onun milli vətənpərvərlik tərbiyəsi, yüksək təhsil tələbləri, dünyaya açılması, yeniliyə, yeni texnologiyalara açıq olması, həyatında milli dəyərlərlə bəşəri dəyərləri uğurla sintez edə bilmək qabiliyyəti kitabxananın fəaliyyətinin əsas ideoloji platformasını təşkil edir.

Göstərilən diqqətə görə Prezident İlham Əliyevə rəhbəri olduğu qurum adından təşəkkür edən O. Quliyev bundan sonra da kollektivlə birgə yorulmadan çalışacaqlarını söyləyib.

Milli Məclisin deputatı Fazil Mustafa Respublika Gənclər Kitabxanasının gənclərin milli vətənpərvərlik ruhunda tərbiyəsində, onların mütaliə marağının ödənilməsində və asudə vaxtlarının səmərəli təşkilindəki fəaliyyətindən bəhs edib.

Tədbir konsert proqramı ilə davam edib.

**AZƏRTAC**

# Müdafiə naziri cəbhəboyu zonada yerləşən tank hərbi hissəsinin açılışında iştirak edib





**Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti bir sıra hərbi təyinatlı obyektlərdə olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, ön xətdə yerləşən tank hərbi hissəsinin açılışında iştirak edən müdafiə naziri burada yaradılan şəraitlə tanış olub və müvafiq göstərişlər verib.

Yeni tikilən inzibati və xidməti obyektlərə, həmçinin burada saxlanılan hərbi texnikalara baxış keçirən general-polkovnik Zakir Həsənov tank heyətlərinin hazırlığını yoxlayıb və zirehli texnikanın döyüş tətbiqi ilə bağlı tapşırıqlar verib.

Sonda müdafiə naziri tankçılarla birgə nahar edib.

**AZƏRTAC**

# Azərbaycan və Avropa İttifaqı arasında yeni ikitərəfli sazişə dair danışıqlar aparılıb



**Azərbaycan və Avropa İttifaqı (Aİ) arasında yeni ikitərəfli sazişə dair danışıqlar aparılıb.**

İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Azərbaycan və Avropa İttifaqı rəsmilərinin iştirakı ilə təşkil olunmuş danışıqlar prosesində çıxış edən iqtisadiyyat naziri Şahin Mustafayev Azərbaycan-Avropa İttifaqı əlaqələrinin inkişaf etdiyini, tərəflər arasında Tərəfdaşlıq və Əməkdaşlıq, Viza və Readmissiya haqqında sazişlərin, Avropa Qonşuluq Siyasəti çərçivəsində Fəaliyyət Planı, Şərq Tərəfdaşlığı Təşəbbüsü kimi mühüm sənədlərin imzalandığını vurğulayıb. Qeyd olunub ki, Azərbaycan Aİ ilə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində uğurla əməkdaşlıq edir. Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi kimi iri layihələrin təşəbbüskarı və fəal iştirakçısı olan Azərbaycan Avropa İttifaqının etibarlı enerji tərəfdaşıdır. Azərbaycanın əlverişli coğrafi mövqeyi, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizləri Azərbaycanın tranzit qovşağı kimi əhəmiyyətini daha da artırır. Azərbaycanın xarici ticarət dövriyyəsində əsas yeri Avropa İttifaqı ölkələri tutur.

Azərbaycanın Avropa İttifaqı ilə əməkdaşlığının davamlı olaraq genişləndirilməsində maraqlı olduğunu vurğulayan nazir Şahin Mustafayev yeni Sazişin hazırlanmasının Azərbaycan Respublikası Prezidenti və Avropa İttifaqı Şurasının Prezidenti tərəfindən 2017-ci ildə elan olunduğunu, Sazişlə bağlı danışıqların davam etdirildiyini, görüşlərin və videokonfransların təşkil olunduğunu bildirib.

İqtisadiyyat naziri Azərbaycan və Avropa İttifaqı arasında yeni ikitərəfli Sazişin əlaqələrin inkişafında əhəmiyyətli olacağını qeyd edib.

Avropa İttifaqının Avropa Xarici Fəaliyyət Xidmətinin Avropa və Mərkəzi Asiya üzrə icraçı direktorunun müavini Luk Devin əlaqələrin genişləndirilməsi və yeni ikitərəfli Saziş layihəsi barədə fikirlərini bölüşüb, sənədin Aİ və Azərbaycan arasında əməkdaşlığın inkişafına töhfə verəcəyini vurğulayıb.

**AZƏRTAC**

# Azərbaycanın xarici işlər naziri İtaliyanın Lombardiya regionunun prezidenti ilə görüşüb

**Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov Milana səfəri çərçivəsində İtaliyanın Lombardiya regionunun prezidenti Attilio Fontana ilə görüşüb.**

Xarici İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə Azərbaycan-İtaliya münasibətlərinin səviyyəsindən məmnunluq ifadə olunub. Ölkələrimiz arasında bütün sahələrdə, o cümlədən iqtisadi sahədə səmərəli əməkdaşlığın mövcudluğu, bu xüsusda İtaliyanın ölkəmizin əsas ticarət tərəfdaşı olduğu qeyd edilib. Azərbaycanda çoxsaylı İtaliya şirkətlərinin fəaliyyət göstərdiyi, operativ qərargahları Lombardiyada yerləşən "Saipem", "Eni", "Snam", "Maire Tecnimont" kimi iri şirkətlərin Azərbaycanla əməkdaşlığa cəlb olunduğu, regionun mərkəzi şəhəri Milan ilə Bakı arasında birbaşa hava nəqliyyatı xəttinin olmasının iki ölkə arasında turizm sahəsində də əlaqələrin inkişafı üçün əhəmiyyəti bildirilib. Lombardiya regionunun İtaliyanın iqtisadi və mədəni həyatında önəmli yerə malik olduğunu nəzərə alaraq, bu regionun Azərbaycan-İtaliya münasibətlərinin daha da inkişafına əlavə töhfələr verə biləcəyindən əminlik ifadə olunub.

Lombardiya regionunun prezidenti gənclik dövründə Bakıya səfəri ilə bağlı xoş xatirələrini bölüşüb, Azərbaycanın son illərdə əldə etdiyi yüksək nailiyyətlər barədə məlumatlı olduğunu bildirib. O, rəhbərlik etdiyi regiondan olan şirkətlərin Azərbaycandakı yeni iqtisadi imkanlardan faydalanmasında maraqlı olduğunu, eləcə də Lombardiyanın yüksək elmi-texnoloji potensialını da nəzərə alaraq, regiondakı ali təhsil müəssisələrinin və elmi-tədqiqat institutlarının Azərbaycandakı müvafiq qurumlarla əlaqələrinin də inkişafının faydalı olacağını diqqətə çatdırıb.

Nazir Elmar Məmmədyarov son illərdə Azərbaycan və İtaliya arasında münasibətlərdə intensivliyin müşahidə olunduğunu, bu xüsusda cari ilin iyul ayında İtaliya Respublikasının Prezidenti Sercio Mattarellanın Azərbaycana rəsmi səfəri vaxtı Prezident İlham Əliyevlə apardığı müzakirələri xatırladıb, habelə səfər zamanı dövlət başçılarının iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkının ərazisində "SOCAR Polymer" layihəsi çərçivəsində operativ qərargahı Milanda yerləşən "Maire Tecnimont" şirkəti tərəfindən inşa edilən polipropilen zavodunun açılışının keçirildiyini bildirib. Azərbaycanın inkişaf strategiyası, prioritet inkişaf istiqamətləri, ölkəmizin təşəbbüsü ilə reallaşan regional və beynəlxalq layihələr, o cümlədən Cənub Qaz Dəhlizi barədə məlumat verən nazir Elmar Məmmədyarov Azərbaycanla daha yaxından tanış olmaq və müxtəlif sahələrdə əməkdaşlıq imkanlarını müzakirə etmək üçün A.Fontananı regiondan olan iqtisadi və elmi-akademik qurumların nümayəndələrinin müşayiəti ilə ölkəmizə səfərə dəvət edib.

Dəvəti məmnuniyyətlə qəbul edən Lombardiya regionunun prezidenti yaxın müddətdə geniş nümayəndə heyəti ilə Azərbaycana səfər etmək niyyətində olduğunu bildirib.

**AZƏRTAC**

*XİN:*

# "Lazerev klubu"nda səsləndirilən fikirlər Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmək məqsədi güdür

Ermənistan və Rusiya KİV-ləri bu ilin 30 noyabr - 1 dekabr tarixlərində Yerevanda keçirilmiş Rusiya-Ermənistan "Lazarev klubu"nun birinci iclası barədə məlumatlar yayıb. Özünü ictimai diplomatiyanın yeni formatı qismində təqdim edən bu klubun əsas təşəbbüskarlarından və təşkilatçılarından biri hazırda Rusiya Federasiyası Federal Məclisinin Dövlət Dumasının yeddinci çağırışında MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə əlaqələr üzrə Komitə sədrinin birinci müavini vəzifəsini tutan Konstantin Zatulindir. Təşkilatçılar tərəfindən Azərbaycan Respublikasının Ermənistan Respublikası tərəfindən işğal edilmiş ərazilərində yaradılmış qanunsuz rejimin nümayəndələrinin iclasa dəvət olunması, həmçinin iclas zamanı K.Zatulinin özü, eləcə də Rusiya XİN-in Veteranlar Şurasının keçmiş sədri, fövqəladə və səlahiyyətli səfir ranqı olan Vladimir Kazimirov, MDB ölkələri institutunun direktor müavini Vladimir Yevseyev və digər şəxslər tərəfindən səsləndirilən və Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünə qarşı açıq hücum xarakteri daşıyan fikirlər Azərbaycan və Rusiya arasında mövcud olan yüksək səviyyəli münasibətlərə xələl gətirmək məqsədi güdür.

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin açıqlamasında bildirilir.

Açıqlamada deyilir: "Bundan əlavə, K.Zatulinin səsləndirdikləri fikirlər MDB çərçivəsində əməkdaşlığın inkişafı maraqlarına qarşı gələrək, onun Dövlət Dumasının müvafiq komitə rəhbərinin birinci müavini statusuna uyğun gəlmir. V.Yevseyevin açıqlaması isə tamamilə cəfəngiyatdır və MDB çərçivəsində əməkdaşlığın ruhuna zərbədir. Nəhayət, "Lazerev klubu"nun ümumi tonu Rusiya Federasiyası da daxil olmaqla, ATƏT-in Minsk qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan münaqişəsinin həlli prosesinin irəli aparılması səyləri ilə ziddiyyət təşkil edir.

Azərbaycan Respublikası məsələ ilə bağlı narazılığını Rusiya Federasiyasındakı səfirliyi vasitəsilə Rusiya Xarici İşlər Nazirliyinin diqqətinə çatdırıb".

**AZƏRTAC**

# Azərbaycan Rus İcmasının bəyanatı

**Azərbaycan Rus İcmasının Respublika Şurası Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulinin Yerevanda Lazarev klubunun iclasındakı çıxışında Azərbaycana qarşı səsləndirdiyi qərəzli fikirlərə cavab olaraq dekabrın 5-də bəyanat qəbul edib. AZƏRTAC-ın təqdim etdiyi bəyanatda deyilir:**

*"Rusiya Dövlət Dumasının komitə sədrinin birinci müavini Konstantin Zatulin Yerevanda Lazarev klubunun iclasında çıxış edərkən, həmişəki kimi, Azərbaycanı 2016-cı ildə atəşkəs rejimini pozmaqda, təcavüzkar ritorikada və siyasətdə təqsirləndirib.*

*Biz artıq adət etmişik ki, Dövlət Dumasının MDB işləri və həmvətənlərlə əlaqələr komitəsi sədrinin müavini olan Konstantin Zatulin əslində Ermənistanın rəsmi ruporu və komitədə onun nümayəndəsidir.*

*Konstantin Zatulinin yaddaşı çox zəifdir və o unudur ki, əsl təcavüzkar Ermənistandır, onun silahlı dəstələri Azərbaycan Respublikasına qarşı hərbi əməliyyatlara başlayıb, Xocalını, Ağdam kimi digər şəhərləri, onların dinc əhalisini - qocalar, qadınlar və uşaqlarla birlikdə məhv ediblər.*

*Konstantin Zatulin unudur ki, məhz təcavüzkar ermənilər 1 milyondan çox azərbaycanlını öz evlərini tərk etməyə və öz torpaqlarında qaçqın və köçkünə çevrilməyə məcbur ediblər.*

*Erməni tərəfi Azərbaycanın işğal olunmuş torpaqlarında 738 tarixi abidəni, 83 min 500-dən çox eksponatı olan 28 muzeyi, 4 rəsm qalereyasını, 100-dən çox arxeoloji abidəni, 14 memorial kompleksi, 1891 maddi-mədəni resurs obyektini, o cümlədən 1107 mədəniyyət müəssisəsini dağıdıb. Qarət edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanıb.*

*Azərbaycan, onun rəhbərliyi 20 ildən çoxdur ki, Dağlıq Qarabağ ətrafında vəziyyəti dinc yolla nizamlamağa çalışır və yalnız 2016-cı ildə respublika ərazisinin fasiləsiz atəşə tutulmasına cavab olaraq Azərbaycan Silahlı Qüvvələri erməni təcavüzkarlarına layiqli cavab verərək ölkənin işğal altındakı ərazilərinin bir hissəsini azad ediblər.*

*Azərbaycanın rus əhalisi respublikanın ərazi bütövlüyünə dair qanuni hüququnu qorumağa, öz tarixi ərazilərinin müdafiəsinə yönəlmiş səylərini səmimi qəlbdən və hərtərəfli dəstəkləyir. Yüzlərlə rus Azərbaycanın Dağlıq Qarabağ torpaqlarını erməni təcavüzkarlardan qoruyarkən canlarından keçiblər. Onların çoxu milli qəhrəman adına layiq görülüb, orden və medallarla təltif edilib. Ermənistan Azərbaycan xalqının səbrini nə vaxta qədər sınağa çəkə bilər, Azərbaycan əhalisinə təcavüzkar ermənilər tərəfindən işğal edilmiş doğma yurdlarına qayıtmaq üçün daha nə qədər vaxt lazımdır? Konstantin Zatulin bu suallara cavab verə bilərmi? Heç şübhəsiz ki, Azərbaycanın səbri hədsiz deyil. Azərbaycan Silahlı Qüvvələri tərəfindən təcavüzkar ermənilərə növbəti cavabın təqsirkarı Ermənistan rəhbərliyi və Ermənistanın vəkili Konstantin Zatulin olacaq".*

**AZƏRTAC**

# Təhsil Nazirliyi ilə "Clarivate Analytics" arasında yeni əməkdaşlıq müqaviləsi imzalanıb

## *"Web of Science Azerbaijan-2018" mükafatları alimlərimizə təqdim edilib*

**Dekabrın 5-də Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında əməkdaşlığın yeni mərhələsinə həsr olunmuş mərasim keçirilib.**



AZƏRTAC xəbər verir ki, mərasimdə çıxış edən Ceyhun Bayramov son illər ali təhsilin davamlı inkişafına nail olunması, universitetlərin beynəlxalq elmi bazalara çıxışının asanlaşdırılması və alimlərin elmi məqalələrinin nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmasına dəstək göstərilməsi istiqamətində mühüm addımlar atıldığını bildirib. O, Prezident İlham Əliyevin Sərəncamı ilə təsdiq edilmiş "2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılması üzrə Dövlət Proqramı"nın elmin inkişafına daha da təkan verəcəyini, ali təhsilin digər komponentləri ilə yanaşı, universitetlərin elmi fəaliyyətinin modernləşdirilməsi baxımından müstəsna rol oynayacağını vurğulayıb.

2015-ci ildə Təhsil Nazirliyi ilə dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") şirkəti arasında əməkdaşlıq sazişinin imzalandığını xatırladan təhsil naziri bildirib ki, nəticədə Azərbaycanın 40 ali təhsil müəssisəsi "Web of Science®" elmi platformasına çıxış əldə edib. "Clarivate Analytics" ilə əməkdaşlığın artıq müsbət nəticələr verdiyini deyən Ceyhun Bayramov diqqətə çatdırıb ki, son 5 ildə Azərbaycan alimlərinin impakt faktorlu jurnallarda çap olunmuş məqalələrinin ölkə üzrə ümumi sayı 74 faiz artıb, ali təhsil müəssisələri üzrə müvafiq göstərici 88 faiz təşkil edib. "Web of Science®" elmi bazasında 2017-ci ildə 1160 elmi-tədqiqat işi qeydə alınıb ki, bu da son 25 ildə Azərbaycan üzrə publikasiya sayında rekord göstəricidir. Həmin məqalələrin təxminən 43 faizi ali təhsil müəssisələrinin payına düşüb. "Web of Science®" bazasına daxil olan məqalələrin artım dinamikasına görə Azərbaycan son 3 ildə Cənubi Qafqaz ölkələri arasında davamlı olaraq 1-ci yerdə qərarlaşıb. 2015-ci ildə Azərbaycandan cəmi 2 jurnal "Web of Science®" bazasında indeksləşdirilmişdisə, 2017-ci ildə bu göstərici 7-yə çatıb.

Nazir "Clarivate Analytics" şirkəti ilə əməkdaşlığın növbəti 3 il ərzində davam etdirilməsinə dair qərar qəbul edildiyini bildirib. Həmçinin Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2018-2021-ci illəri əhatə edən əməkdaşlıq üzrə Fəaliyyət Planının, ölkəmizin "Web of Science®" bazasında cari durumuna dair şirkət tərəfindən ildə iki dəfə əhatəli hesabatın hazırlanmasını təklif edib.

Daha sonra çıxış edən Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun icraçı direktoru Elçin Babayev "Clarivate Analytics" ilə əməkdaşlığın gələcəkdə də davam etdirilməsi üçün müvafiq addımlar atılmasının vacibliyini vurğulayıb. Azərbaycanda elm və təhsilin inkişafına dövlət tərəfindən hər zaman xüsusi diqqət və qayğının göstərildiyini qeyd edən E.Babayev bu sahədə müvafiq sərəncam və fərmanların imzalandığını xatırladıb, ölkəmizə müasir texnologiyaların gətirildiyini və kadr hazırlığına böyük önəm verildiyini söyləyib. Qeyd edilib ki, bütün bunların bəhrəsi özünü elm sahəsində göstərməlidir. Növbəti mərhələ isə bu nəticələrin məhz nüfuzlu jurnallarda nəşr olunması, elmi işlərə olan istinadların verilməsi və bunun sayəsində də beynəlxalq əməkdaşlığın qurulmasıdır.

Elçin Babayev deyib: "Elmi nəticələr o vaxt əhəmiyyətli olur ki, ona müasir dövrün tələblərindən olan innovasiyalar tətbiq olunur və xarici alimlərlə əməkdaşlıq yüksək səviyyədə həyata keçirilir. Təhsil Nazirliyi tərəfindən hər zaman "Clarivate Analytics" şirkəti ilə əməkdaşlıqda qətiyyətli addımlar atılıb".

"Web of Science Azerbaijan-2018" mükafatları barədə məlumat verən icraçı direktor buraya yeni nominasiyaların daxil edildiyini də söyləyib.

"Clarivate Analytics" şirkətinin konsorsium inkişafı üzrə qlobal direktoru İzabel Reiss, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti Dilqəm Tağıyev ölkədə elmin inkişafı istiqamətində atılan addımlardan, Azərbaycanda əldə olunan elmi nəticələrin dünyada tanıdılmasının vacibliyindən danışıblar.

Tədbirdə "Clarivate Analytics" tərəfindən "2015-2018-ci illərdə "Web of Science" elmi bazasında Azərbaycan ali təhsil müəssisələri: nəticə və perspektivlər" adlı təqdimat keçirilib.

Sonra Təhsil Nazirliyi ilə "Clarivate Analytics" şirkəti arasında 2019-2021-ci illəri əhatə edən əməkdaşlığa dair müqavilə imzalanıb. Müqavilə mövcud əməkdaşlığın əhatə dairəsinin genişləndirilməsini, "Web of Science®" platformasının rusdilli elmi nəşrlər bazasına və ölkə üzrə elmi fəaliyyətin əhatəli təhlilinə imkan verən İnCites platformasına çıxışın təmin olunmasını nəzərdə tutur.

Daha sonra "Web of Science Azerbaijan-2018" mükafatları müxtəlif kateqoriya və nominasiyalar üzrə azərbaycanlı alimlərə təqdim edilib.

**AZƏRTAC**

*Fikrət ƏLİYEV:*

# Jurnalımızın "Web of Science Awards 2018" mükafatına layiq görülməsi Azərbaycan elminin böyük nailiyyətidir

**"Tətbiqi və Hesablama Riyaziyyatı" ("Applied and Computational Mathematics") jurnalının "Web of Science Awards 2018" mükafatına (Q1 siyahısına daxil olmaq nominasiyası) layiq görülməsi Azərbaycan elminin böyük nailiyyətidir. Azərbaycan alimlərinin əməyinin bu cür yüksək səviyyədə qiymətləndirilməsi bizi ruhlandırır və gələcəkdə daha səmərəli işləmək üçün qarşımıza böyük vəzifələr qoyur.**







Bunu AZƏRTAC-a müsahibəsində "Tətbiqi və Hesablama Riyaziyyatı" jurnalının baş redaktoru, Bakı Dövlət Universiteti (BDU) Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının həqiqi üzvü Fikrət Əliyev söyləyib.

Müasir dövrdə ölkəmizdə elm sahəsinin inkişafında mühüm addımların atıldığını qeyd edən F.Əliyev "Web of Science" təşkilatı tərəfindən institut və jurnalların, müxtəlif sahələrdə çalışan alimlərin fəaliyyətinin qiymətləndirildiyini söyləyib.

Akademik bildirib ki, 2002-ci ildən Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin və AMEA-nın dəstəyi ilə BDU-nun Tətbiqi Riyaziyyat Elmi-Tədqiqat İnstitutunda buraxılan "Tətbiqi və Hesablama Riyaziyyatı" jurnalı Azərbaycanın elm tarixində ilk və yeganə elmi nəşr olaraq 2008-ci ildə "Thomson Reuters" agentliyinin (indiki "Clarivate Analytics") genişləndirilmiş siyahısına daxil edilib. Jurnal 2010-cu ildən impakt faktor (keyfiyyət dərəcəsi) alıb. Ötən 8 ildə jurnal bu sahədə öz liderliyini qoruyub saxlaya bilib. "Tətbiqi və Hesablama Riyaziyyatı" "Web of Science" təşkilatının yeganə impakt faktorlu Azərbaycan elmi jurnalıdır.

Son zamanlar Azərbaycanın bir sıra jurnallarının bu təşkilatın siyahısına daxil edildiyini deyən alim həmin nəşrlərin hələlik heç birinin keyfiyyət dərəcəsinin olmadığını bildirib.

F.Əliyev diqqətə çatdırıb ki, 2017-ci il üçün "Tətbiqi və Hesablama Riyaziyyatı" beynəlxalq elmi jurnalının keyfiyyət dərəcəsi 2.365-ə yüksəlib. Jurnal dünyada bu siyahıda tətbiqi riyaziyyat, yüksək texnologiyalar sahəsi üzrə yer alan 252 beynəlxalq nəşr arasında 19-cu, Avropa İttifaqında 4-cü, keçmiş sovet ölkələri sırasında isə 1-ci yerdədir. Beynəlxalq elmi jurnalının redaksiya heyətinə dünyanın 18 ölkəsindən 32 görkəmli alim daxildir.

**AZƏRTAC**

# Bakı Şəhər İcra Hakimiyyətində seminar-müşavirə

Bakı Şəhər İcra Hakimiyyətində paytaxtın məktəbəqədər təhsil müəssisələri və uşaq evlərinin rəhbərlərinin iştirakı ilə bu müəssisələrdə təlim-tərbiyə işlərinin keyfiyyətinin yüksəldilməsi və digər məsələlərə həsr olunmuş seminar-müşavirə keçirilmişdir. Müşavirəyə sədrlik edən **Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının rəhbəri Elgin Həbibullayev** son illər ərzində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ölkədə təhsilə, xüsusi ilə də məktəbəqədər təhsil müəssisələrinə olan diqqət və qayğısının nəticəsində görülən işlər barədə məlumat vermişdir. Məktəbəqədər uşaq müəssisələrinin tikintisi, əsaslı təmiri və avadanlıqlarla təminatı işlərində Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun rolunu xüsusi qeyd edən Elgin Həbibullayev bildirmişdir ki, hazırda paytaxtda 346 dövlət məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir. Ölkə başçısı cənab İlham Əliyevin sərəncam və tapşırıqları, həmçinin Heydər Əliyev Fondu tərəfindən son illərdə Bakı şəhərində 6 yeni uşaq bağçası, 3 bağça üçün əlavə korpus tikilib, 16 bağça sökülərək yenidən tikilib, 206 bağça isə əsaslı təmir olunub. Onlar hər cür lazımi avadanlıq və inventarlarla təchiz olunmuşlar. Şəhər icra hakimiyyəti tərəfindən aparılan araşdırmalar nəticəsində paytaxtda təmirə ehtiyacı olan bağçalar müəyyənləşdirilərək onların əsaslı təmiri ilə bağlı tədbirlər hazırlanır.



Elgin Həbibullayev öz çıxışında həm də paytaxtdakı məktəbəqədər təhsil müəssisələrinin avadanlıq və inventarlarla təchizatı, təlim-tərbiyə prosesi zamanı mövcud təlimatlara, metodiki göstərişlərə, gün rejimi normalarına, tədris proqramlarının tələblərinə əməl olunmasının vəziyyəti, uşaqların qidalanması, onlarda vətənpərvərlik tərbiyəsinin yüksəldilməsi, fiziki tərbiyə məşğələlərinə, xüsusilə səhər gimnastikasının keçirilməsinə, estetik tərbiyə ilə bağlı həyata keçirilən tədbir və məşğələlərə, uşaqların bir şəxsiyyət kimi formalaşmasına yönəldilən tədbirlərə diqqətin artırılması, pedaqoji işçilərin yerləşdirilməsi və onların biliklərinin artırılması, bağçalarda tərbiyəçi-uşaq münasibətlərinə, uşaqlara xüsusi qayğı ilə yanaşma və s. məsələlərə toxundu. Bildirdi ki, şəhər rəhbərliyi tərəfindən bu müəssisələrin fəaliyyəti və buradakı məsələlər ciddi nəzarətə alınıb və bütün sahələr üzrə yeniliklər və islahatların aparılması planlaşdırılıb. Həmçinin məktəbəqədər təhsil müəssisələrinə uşaqların qəbulunda neqativ halların aradan qaldırılması, burada şəffaflığın təmin olunması ilə bağlı bağçalara qəbulun elektronlaşdırılması nəzərdə tutulmuşdur. Şəhərimizdəki bəzi bağçalarda məcburi köçkünlərin məskunlaşması ilə bağlı yaranan problemlər, gələcəkdə uşaq bağçalarına olan tələbatın ödənilməsi üçün görülən əlavə tədbirlər barədə də məlumat verilib.

Paytaxtdakı məktəbəqədər təhsil müəssisələrində vəziyyət və mövcud problemlərin aradan qaldırılması ilə bağlı Bakı Şəhər Məktəbəqədər Təhsil Müəssisələri və Uşaq Evləri İdarəsinin rəis müavini Teymur Mehdiyev, Təhsil Nazirliyinin sektor müdiri Nərminə Alnağıyeva, uşaq bağçalarının rəhbərləri çıxış edərək görülən işlərdən danışmış, problemlərin həlli ilə bağlı təkliflərini vermişlər.

Seminarda bağçaların fəaliyyətində bir sıra müsbət və mənfi məqamları əks etdirən videofilm nümayiş etdirilmiş, toplantı iştirakçılarının sualları cavablandırılmış, onlara şəhər icra hakimiyyəti tərəfindən hazırlanmış məktəbəqədər təhsil müəssisələrinin pedaqoji əməkdaşları üçün metodiki təlimat və tövsiyələr paylanılmışdır.

**Məhəmməd VƏLİYEV,**
**"Respublika".**

# UNEC Web of Science üzrə son 3 ildə ölkənin ən inkişaf etmiş universiteti seçilib

**UNEC dünyanın ən böyük elektron elmi-analitik informasiya bazası olan "Clarivate Analytics" (əvvəlki adı "Thomson Reuters") şirkətinin mükafatına layiq görülüb.**




Beynəlxalq səviyyəli universitet olmaq istiqamətində məqsədyönlü addımlar atan UNEC nüfuzlu elmi jurnallarda nəşrlərinin sayının ilbəil artmasına və dünya elm məkanına uğurla inteqrasiya etdiyinə görə "Clarivate Analytics" şirkətinin "Web of Science Awards - 2018" və "Most progressive universities in Web of Science for the last 3 years" mükafatlarını qazanıb.

UNEC-də "Clarivate Analytics" şirkəti ilə əməkdaşlıq çərçivəsində birgə beynəlxalq konfrans və təlimlər keçirilib. MDB məkanı ölkələrində ilk dəfə olaraq UNEC-də elmmetriya haqqında biliklərin sistemləşdirildiyi "Elmmetriya üzrə vəsait: Elm və texnologiyaların inkişaf indikatorları" kitabı tərcümə edilərək çap olunub.

Əməkdaşlıq müddətində UNEC-in professor-müəllim heyətinin "Web of Science"ə daxil edilən elmi əsərlərinin sayında da ciddi artım qeydə alınıb. Belə ki, UNEC-in 1991-2018-ci illərdə "Web of Science"ə daxil edilən elmi əsərlərinin (77 əsər) təxminən 56%-i (43 əsər) son 3 ilin payına düşür.

# Gəncə Dövlət Universitetinin 80 illik yubileyi

**Respublikamızın Qərb bölgəsində zəngin və şərəfli tarixə malik, ən böyük ali təhsil müəssisəsi olan Gəncə Dövlət Universitetinin fəaliyyətə başlamasından 80 il keçir. Bu münasibətlə universitetdə təntənəli yubiley tədbiri keçirilib.**

Yubiley tədbirində Təhsil naziri Ceyhun Bayramov, Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, respublikamızın və dünyanın bir sıra nüfuzlu universitetlərinin, elm-təhsil mərkəzlərinin rəhbərləri, görkəmli alimlər, Milli Məclisin deputatları, ictimai-siyasi xadimlər və universitetin professor-müəllim heyəti iştirak edib. Tədbir iştirakçıları ilk öncə, Gəncə şəhərinin mərkəzinə gələrək Heydər Əliyev meydanında ümummiilli liderin abidəsini ziyarət edib, önünə əklil və tər çiçəklər düzüb, xatirəsini böyük ehtiramla anıblar. Sonra sahəsinə görə universitetin ən böyük tədris binası olan 5-ci korpusun əsaslı yenidənqurmadan sonra açılışı olub. Bildirilib ki, yeni tədris binası universitetin daxili imkanları hesabına müasir təhsil standartları səviyyəsində yenidən qurulub. Ümumi ərazisi 4,8 hektar olan 4 mərtəbəli tədris binası müasir infrastruktura və zəngin maddi texniki bazaya malikdir. Ərazidə 2 mərtəbəli tədris binası, 99 otaq (42 auditoriya, 52 ofis), idman və 306 yerlik iclas zalı, kiçik iclas zalı, tibb məntəqəsi, yeməkxana və 4 min 200 kvadratmetr idman sahəsi var. Həmçinin, yeni tədris binasının nəzdində Heydər Əliyev guşəsi, universitetin tarixini əks etdirən muzey, sahəsi 360 kvadratmetr olan Nuru Paşa adına 30 min kitab fonduna malik kitabxana, Əlil Tələbələr üçün Mərkəz, Müasir Təlim Mərkəzi, E-Öyrənmə Mərkəzi, Aleksandr Düma adına Fransa Mədəniyyət Mərkəzi, Dil Resursları Mərkəzi və iki müxtəlif istiqamətlərdə fəaliyyət göstərəcək Kompüter Mərkəzi yaradılıb.

Tədbirdə Gəncə Dövlət Universitetinin keçdiyi şərəfli yolu və müasir inkişaf istiqamətlərini əks etdirən videoçarx izlənilib. Yubiley tədbirində çıxış edən GDU-nun rektoru, professor Yusif Yusibov qonaqları və iştirakçıları salamlayaraq, universitet haqqında məlumat verərək bildirib ki, zəngin ənənələrə, özünəməxsus tarixi keçmişə malik olan bu ali təhsil ocağı ötən 80 il ərzində təkcə ölkəmiz üçün yox, həmçinin qonşu respublikalar üçün də peşəkar, səriştəli pedaqoji kadrlar hazırlamış və qərb regionunda maarifçiliyin inkişafında öz xidmətlərini göstərmişdir. Hazırda universitetdə 8 fakültə, 13 şöbə, 8 mərkəz fəaliyyət göstərir, 6 mindən çox tələbə təhsil alır, onların təlim-tərbiyəsi ilə 550 nəfərə qədər professor-müəllim heyəti məşğul olur. Universitet yüksəkkeyfiyyətli maddi-texniki bazaya malikdir və onun 5 tədris binası, tələbə yataqxanası və 655 min nüsxə kitab fonduna malik kitabxanası var. Yüksəkixtisaslı mütəxəssislərin hazırlanması üçün 32 tədris laboratoriyası, 5 ixtisas kabineti, 2 tədris emalatxanası,12 kompüter mərkəzi və geniş auditoriyalar mövcuddur. Hazırda bakalavriat səviyyəsində 40, magistratura səviyyəsində 63 ixtisas üzrə kadr hazırlığı aparılır. 2017-ci ildə müasir idarəetmə sisteminə uyğun olaraq strukturun optimallaşdırılması məqsədilə yeni İnnovasiyalar Departamenti və onun nəzdində 5 şöbə, 8 mərkəz, 6 tədris və 1 elmi-tədqiqat laboratoriyası, həmçinin Əlavə Təhsil fakültəsi yaradılıb. Son illər Gəncə Dövlət Universitetində tələbə qəbulu planının yerinə yetirilməsi 97 faizə qədər yüksəlib. Hazırda 90 nəfərdən çox tələbə "Gələcəyin müəllimi" təqaüdünü alır. Elm və təhsil inteqrasiyası üzrə universitetin 40-dək xarici ölkə, respublikadaxili universitetlərlə və AMEA-nın Elmi-tədqiqat institutları ilə qurulmuş əlaqələri beynəlxalq əməkdaşlığa və təhsil mübadilə proqramlarına xidmət edir. Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov çıxış edərək GDU-nun 80 illik yubileyi münasibətilə kollektivi təbrik edib. O bildirib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş təhsil islahatı ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilir. Gəncə Dövlət Universitetinin istifadəyə verilən yeni tədris korpusu möhtərəm Prezident cənab İlham Əliyevin təhsilin inkişafına göstərdiyi diqqət və qayğının bariz nümunəsidir. Burada yaradılan şərait təhsilin səviyyəsini müasir Avropa standartlarına uyğunlaşdırır. GDU-da təhsilin inkişafı onun reytinqini daha da artırmışdır. İndi yalnız qərb bölgəsindən deyil, respublikanın müxtəlif guşələrindən olan yüksək ballı abituriyentlərin də Gəncə Dövlət Universitetini seçməsi diqqətəlayiqdir. Əsas məqsəd gələcəyin vətənpərvər, ziyalı vətəndaşını, yüksək səviyyəli mütəxəssisini hazırlamaqdır. Azərbaycan Respublikasının Təhsil naziri Ceyhun Bayramov tədbir iştirakçılarını salamlayaraq, ölkədə təhsilə göstərilən diqqət və qayğıdan söz açıb. O qeyd edib ki, Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nı təsdiqləməsindən ötən 5 il ərzində təhsilin müxtəlif pillələrini əhatə edən istiqamətlər üzrə mühüm dövlət sənədləri qəbul edilib. Son dövrlərdə ali təhsilin əhatəlilik səviyyəsi əhəmiyyətli şəkildə artıb. Belə ki, 2018-2019-cu tədris ili üzrə qəbul imtahanlarının nəticələrinə əsasən, əvvəlki illərlə müqayisədə rekord sayda - 41 min abituriyent tələbə adını qazanıb, 500 və daha artıq bal toplayan məzunlar arasında 2090 nəfər müəllimlik ixtisasını seçib. Gəncə Dövlət Universiteti də bu gün özünün elmi və ictimai göstəricilərinə görə ölkəmizin aparıcı universitetlərindən biri hesab oluna bilər. Beynəlxalq əlaqələri artan Gəncə Dövlət Universitetinin müəllim və tələbələri Respublikamızı xarici ölkələrdə müxtəlif sahələrdə uğurla təmsil edirlər.

Sonra Prezident İlham Əliyevin 2018-ci il 31 oktyabr tarixli sərəncamları ilə təhsilin inkişafındakı xidmətlərinə görə Gəncə Dövlət Universitetinin Fəxri adlarla və "Tərəqqi" medalı ilə təltif olunan 23 nəfər əməkdaşına dövlət mükafatları təqdim edilib.

**Zabit XƏLİLOV,**
**"Respublika" .**

# Vəkillərin fəaliyyətini tənzimləyən Qanun prioritetdir

**2018-ci ildə Azərbaycanda vəkilliyin yaranmasının 100 illiyi tamam olmuş, bir əsr zamanında vəkillərin peşəkarlıq səviyyəsi artmış, vəkillik fəaliyyətini tənzimləyən Qanun qəbul olunmuşdur. 2017-ci il dekabrın 7-də Vəkillər Kollegiyasının Konfransında yeni sədr seçilmiş, Konfransda, həmçinin "Vəkillərin davranış qaydaları haqqında" Əsasnamə qəbul olunmuşdur. Əsasnamənin qəbul olunmasında əsas məqsəd vəkillərin nüfuzunun artırılması və ona olan etimadın yüksəldilməsi, fiziki və hüquqi şəxslərə göstərilən hüquqi yardımın keyfiyyətinin yüksəldilməsi, vəkil qurumları və vəkillərin fəaliyyətində səmərəliliyin artırılması olmuşdur. Bu istiqamətdə işlər başlanmış və uğurla davam etdirilmişdir.**

İlk gündən yeni seçilmiş sədr tərəfindən Vəkillər Kollegiyasının Aparatı təşkil olunmuş, Aparat əməkdaşları da öz növbəsində gündə 10-12 saat belə çalışmaqdan çəkinməmişlər. Sədrin nəzarəti altında yerlərdə vəkil qurumlarındakı vəziyyət öyrənilmiş, təhlil edilmiş, operativ islahatlara, yeniliklərə, dəyişikliyə start verilmişdir. İlk növbədə vəkillərin sayının artırılması məqsədi ilə lazımi işlər görülmüş, qəbul qaydaları daha da sadələşdirilmiş, yekunda vəkillərin sayı 1500 nəfəri ötmüşdür. Bu da hər 10 min nəfərə 15 nəfər vəkilin düşməsi deməkdir.

Ölkə ərazisində hüquqi yardımı təmin etmək məqsədi ilə bütün vəkil qurumlarında qabaqcadan növbətçilik cədvəlləri hazırlanaraq təsdiq edilmiş, keyfiyyətli hüquqi yardımın təmin edilməsi istiqamətində mütərəqqi və mühüm addım atılmışdır. Növbətçilik cədvəlləri hazırlandıqdan və yerlərdə bunun icrasına nəzarət istiqamətində aparılan monitorinqlər, bəzən qeyri-prosessual münasibət belə hallarının baş verməməsi üçün şəraiti normallaşdırmışdır.

Ölkədə aparılan islahatların yeni müstəvidə aparılması məqsədilə 22 fevral 2018-ci il tarixli Prezidentin "Azərbaycan Respublikasında vəkilliyin inkişafı ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamı Azərbaycan Respublikası Vəkillər Kollegiyasının 100 illik tarixində ölkə başçısı tərəfindən atılan ən mütərəqqi addımdır. Sərəncam ölkədə vəkilliyin daha da inkişafına, onun nüfuzunun, sosial rifahının yüksəldilməsinə, göstərilən hüquqi yardımın səmərəliliyinin artırılmasına, aztəminatlı ailələrə dövlət büdcəsi vəsaiti hesabına hüquqi yardımların göstərilməsinə, insan hüquq və azadlıqlarının qorunmasında peşəkarlığın artırılmasına, nəzakətli davranış sərgilənməsinə hesablanmış və uzunmüddətli dövrləri əhatə edəcək lazımi sənəddir. Bu sənəd Vəkillər Kollegiyasında aparılan işlərə sanki yeni ruh, yeni nəfəs vermişdir.

İllərdən bu günə miras qalan problemlərin həlli istiqamətində başlanılmış və davam edən köklü dəyişiklər nəticəsində respublikada vəkil qurumların sayı 48-i keçmiş, vəkil qurumlarında normal iş şəraitləri təmin etmək məqsədilə lazımi işlər görülmüş, ayrı-ayrı vəkil qurumlarının maddi-texniki bazası möhkəmlənmiş, yeni avadanlıqlarla təchiz edilmişdir. Vəkillərin dövlət büdcəsi vəsaiti hesabına hər saata görə aldıqları 2 manat məvacib 6 manata qaldırılmışdır. Vəkillər üçün güzəştli tibbi müayinələr təşkil olunmuş və bu illər davamlı olaraq qərara alınmışdır. Yeni vəkil qurumları yaradılmış, "ASAN xidmət"də hüquqi yardım işi təşkil olunmuş, vəkillər müxtəlif seminarlara, tədris kurslarına, beynəlxalq tədbirlərə cəlb olunmuşlar. Azərbaycan Respulikası Vəkillər Kollegiyası ilə ayrı-ayrı ölkə vəkil ali qurumları arasında əməkdaşlıq əlaqələri qurulmuş, beynəlxalq təcrübələr öyrənilmiş, vəkilliyin inkişafı üçün yeni dəyərlər əxz olunmuşdur.

Aztəminatlı ailələrə pulsuz hüquqi yardım kampaniyasına 30 iyul 2018-ci il tarixdə Azərbaycan Respublikası Vəkillər Kollegiyasının 100 illik münasibətilə keçirilən tədbirlərlə başlanmışdır. Bu işlər mütəmadi olaraq bütün ölkə ərazisində aparılır və bu məqsədlə səyyar briqadalar təşkil olunmuşdur. Həmçinin, 30 iyul Vəkillərin Peşə bayramı günü kimi qəbul olunmuş, aparat işçilərinin sayı artırılmış, yeni saytlar yaradılmış, kargüzarlıq işinin təkmilləşdirilməsi istiqamətində müxtəlif işlər, yeni müqavilə, blank və s. sənədləri hazırlanmış, vəkillərin ümumi reyestri aparılmış, hər bir vəkilin peşə bacarığı, biliyi, onunla əlaqə üsulu göstərilmişdir. Sorğu-sual bölməsi, "Azərbaycan vəkili" jurnalı, qaynar xətt daimi fəaliyyət göstərməkdədir. Yeni saytlarda Vəkillər Kollegiyasının fəaliyyəti daimi olaraq işıqlandırılır, digər qanunsuz hallara qarşı mübarizə təbliğ edilir.

Ayrı-ayrı vəkil qurumlarında illərdən qalmış və bu günə gəlib çatmış qanunsuz hallar yeni Kollegiya rəhbərliyi tərəfindən davamlı, hərtərəfli formada araşdırılır, müvafiq qanuni tədbirlər görülməsi təmin olunur və bu istiqamətdəki işlər prioritet məsələ olaraq davam etdirilir. Atılan hər bir addımda məqsəd vətəndaşlara göstərilən hüquqi yardımın səviyyəsini yüksəltmək, vəkillik institutunun inkişafına, nüfuzunun daha da artırılmasına nail olmaqdır.

Vəkillərin asudə vaxtlarını səmərəli təşkil edilməsi məqsədilə vəkillərdən ibarət futbol klubu, musiqi üzrə peşəkar ansambl təşkil edilmişdir. Qeyd etmək istərdim ki, futbol klubu MDB çərçivəsində keçirilən idman yarışlarında qalib adını qazanmış, kubokun sahibi olmuşdur.

Vəkillər Kollegiyasının Rəyasət Heyətinin yeni inzibati binasına daxil olarkən səmimi, işgüzar, yüksək əhval-ruhiyyənin şahidi olursan. Bu hər bir vəkil üçün mənəvi qidadır. Qaynar həyatı xatırladan bu əhval-ruhiyyəni hiss etməmək mümkün deyildir. Bu mühit bu inkişafın başında sağlam düşüncəli insanların durduqlarını göstərir. Bu gün Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov cəsarətli addımları, yüksək peşəkarlığı, operativ və ədalətli qərarları, nəzakətli və yüksək mədəni davranışı ilə vəkilliyin 100-cü ilində quruma inamla rəhbərlik edir. Bu hər bir vəkil üçün böyük şans, uğurlu sabah, xoş gələcəkdir.

**Məzahir ŞAHMAROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü,**
**Bakı şəhəri 1 saylı Vəkil Bürosunun vəkili.**

# Quba rayonunda Dövlət Baytarlıq Xidmətinin növbəti ilə hazırlıq işləri

**Kənd Təsərrüfatı Nazirliyi yanında Dövlət Baytarlıq Xidməti tərəfindən ölkə ərazisində mövcud olan epizootik sabitliyin təmin edilməsi və zoonoz xəstəliklərin qarşısının alınması istiqamətində lazımi tədbirlər davam etdirilir. Bu məqsədlə baytarlıq xidmətinin əməkdaşları 2018-ci ilin "Epizootiya əleyhinə diaqnostika və profilaktik tədbirlər planı"na uyğun müxtəlif xəstəliklərə qarşı diaqnostik müayinələr, profilaktik peyvəndləmələr, dezinfeksiya, dezinseksiya, deratizasiya, çimizdirmə, dehelmentizasiya və digər tədbirləri aparır.**

Dövlət Baytarlıq Xidmətinin Quba Rayon Baytarlıq İdarəsi tərəfindən rayon ərazisində mövcud epizootik sabitliyin qorunması və zoonoz xəstəliklərin qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlərlə əlaqədar mal-qara, davar və quşlar yetişdirilən və saxlanılan binaların dezinfeksiyası, dezinseksiyası aparılır. Qışlamaya hazırlıq ilə əlaqədar olaraq Hacıhüseyinli kəndində "Quba KTMİ" MMC-nin maldarlıq təsərrüfatında 1750, Susayqışlaq kəndində Dadaşov Nazirə məxsus maldarlıq təsərrüfatında 750 kvadratmetr, Qaraçay kəndində Yarməmmədov Vəlməmmədə məxsus fərdi maldarlıq təsərrüfatında 810 kvadratmetr ərazidə dezinfeksiya və dezinseksiya işləri icra edilib...

Quba Rayon Baytarlıq İdarəsi bu dövr ərzində həssas heyvanlar arasında brusellyoz xəstəliyini aşkar etmək, xəstəliklərin yayılmasının qarşısını almaq məqsədi ilə 15506 baş iribuynuzlu və 4986 baş xırdabuynuzlu heyvanlardan (qoçlardan) bursellyoz xəstəliyinə görə qan nümunələri alınaraq müayinə edilib. Eləcə də 8727 baş iribuynuzlu heyvanlarda vərəmə (allergik), 4986 baş qoçlarda infeksion epidedimitə (seroloji) və 1949 baş atlarda manqo xəstəliyinə görə (maleinizasiya) müayinələri aparılıb və yoluxma aşkar edilməyib.

Həmçinin, cari ilin ötən dövrü ərzində 61154 baş iribuynuzlu, 262756 baş xırdabuynuzlu, 1020 baş cavan iribuynuzlu, 3996 baş təkdırnaqlı heyvanda qarayara, 98971 baş iribuynuzlu heyvanda, 151741 baş xırdabuynuzlu heyvanda



dabaq, 63473 baş iribuynuzlu heyvanda infeksion nodulyar dermatit, 3095 baş iribuynuzlu heyvanda leptospiroz, 261635 baş xırdabuynuzlu heyvanda çiçək, 40367 baş xırdabuynuzlu heyvanda ("Rev-1" vaksini), 9596 baş iribuynuzlu heyvanda ("Stamm-19" vaksini) brusellyoz, 5847 baş itdə quduzluq, ev quşları arasında nyukasl xəstəliyinə qarşı 269536 başda "La-sota" vaksini, 222181 başda "H" vaksini ilə profilaktiki peyvəndləmə tədbirləri aparılıb.

Dövlət Baytarlıq Xidməti bildirir ki, ölkədə aparılan profilaktiki peyvəndləmələrin, diaqnostik müayinələrin və baytarlıq-sanitariya tədbirlərinin vaxtlı-vaxtında aparılmasının nəticəsi olaraq respublika ərazisində heyvanlar və quşlar arasında iti yoluxucu xəstəliklər baş verməyib və hazırda epizootik vəziyyət sabitdir.

**Nəriman CAVADOV,**
**"Respublika".**

# Şəhid və müharibə əlillərinin övladları üçün ödənişsiz "Veb-dizayn" kursları

"Veysəloğlu" Şirkətlər Qrupu özünün Korporativ Sosial Məsuliyyət (KSM) istiqamətində "İstedadlı gənc" proqramı çərçivəsində yeni layihəyə start verib. Belə ki, şirkət Qarabağ müharibəsində və aprel döyüşlərində şəhid olan, həmçinin əlillik dərəcəsi alan şəxslərin övladları, eyni zamanda, ailə üzvləri üçün sosial layihə olaraq, 3 aylıq "Veb-dizayn" (saytın layihələnməsi, yaradılması və idarə edilməsi) layihəsini təşkil edib. Layihədə yaşı 17-25 aralığında olan 10 nəfər Qarabağ və aprel şəhidinin övladı, eləcə də qohumları iştirak edirlər.



Qeyd edək ki, "Veysəloğlu" Şirkətlər Qrupunun təşəbbüsü və təşkilatçılığı, "Peşəyönümlü təhsilin inkişafına yardım" İctimai Birliyinin tərəfdaşlığı ilə 48 saatlıq proqram əsasında təşkil olunan kursu bitirən gənclərə Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin sertifikatı təqdim ediləcək. Dərslər nazirliyin "Elektron Hökumət Təlim-Tədris Mərkəzi"ndə keçirilir.

"Veysəloğlu" Şirkətlər Qrupunun "Veb-dizayn" kimi kursları təşkil etməkdə məqsədi bu sahəyə marağı olan gənclərin bilik və bacarıqlarını artırmaq, peşəkar səviyyəyə çatdırmaq, habelə kursu bitirərək iş tapmalarına yardımçı olmaqdır.

**Bəybala BƏYBALAYEV,**
**"Respublika".**


## BİLDİRİŞ
## TƏKLİFLƏR SORĞUSU

"Azərbaycan Sənaye Korporasiyası" ASC Bakı şəhəri, Yasamal rayonu, 1033-cü məhəllə, Tbilisi prospekti 33 ünvanında yerləşən ofis binasının təmir və tikinti işlərinin təkliflər sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar +994 77 2771106 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Təkliflər sorğusunda iştirak etmək üçün sənədlər 20 dekabr 2018-ci il saat 12:00 tarixinədək qəbul olunur.

**Ünvan:** *AZ1065 Bakı şəhəri, Yasamal r-nu,*
*Cəfər Cabbarlı küçəsi, 40C.*

**"ASK" ASC Tender Komissiyası.**

TƏKRAR

"Bakı Metropoliteni" QSC Blok Post ve Bakmil stansiyası üçün interyer avadanlığı və aksesuarlarının satınalınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir:

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi 16-dan (Əlaqələndirici şəxs: İlqar Qasımov telefon: 490-00-91) ala bilərlər.

LOT-1. Blok Post ve Bakmil stansiyası üçün interyer avadanlığı və aksesuarlarının satınalınması

İştirak haqqı - 300 manat
Hesabın adı: BAKI METROPOLİTENİ QSC
Hesab nömrəsi (İBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı:
AZ02NABZ01350100000000022944
SWİFT BİK: AZRTAZ22

İştirak haqqı heç bir halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
-tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi dəyərinin 2%-i həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır).
-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
-iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
-iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 dekabr 2018-ci il saat 18:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 07 yanvar 2019-cu il saat 17:00-a qədər, Bakı şəhəri, M.Rəfili küçəsi 16, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 08 yanvar 2019-cu il saat 15:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

"BAKI METROPOLİTENİ" QSC
TENDER KOMİSSİYASI.

"Bakı Metropoliteni" QSC 2019-cu il üçün dəftərxana və ofis ləvazimatlarının, kartriclərin və kartriclərin dolumu xidmətinin satınalınması üzrə

AÇIQ TENDER ELAN EDİR

Tender 3 (üç) lot üzrə keçirilir:

1 lot: "Bakı Metropoliteni" QSC-yə 2019-cu il üçün illik nəzərdə tutulan dəftərxana və ofis ləvazimatlarının satınalınması

2 lot: "Bakı Metropoliteni" QSC-yə 2019-cu il üçün illik nəzərdə tutulan kartriclərin satınalınması

3 lot: "Bakı Metropoliteni" QSC-yə 2019-cu il üçün illik nəzərdə tutulan printer təmiri, ehtiyat hissələrinin əvəz olunması və kartric doldurulmasına dair servis xidmətlərinin satınalınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər iştirak haqqını aşağıda göstərilən müvafiq hesaba köçürdükdən sonra tərtib olunmuş əsas şərtlər toplusunu

Bakı şəhəri, "Bakı Metropoliteni" QSC
Ünvanı: Bakı ş., M.Rəfili 16 Telefon: (+99412) 490-00-91 ünvanından ala bilərlər.
Əlaqələndirici şəxs: İlqar Qasımov
Telefon: (012) 490-00-91

İştirak haqqı heç bir halda geri qaytarılmır.
İştirak haqqı 1 lot üzrə - 200 manat
2 lot üzrə - 200 manat
3 lot üzrə - 200 manat
Hesab: AZ98AZRT38050019440010268002
VÖEN: 1402871431
Bank: AZƏR-TÜRK BANK ASC (Mərkəz filialı)
Kodu: 501361
VÖEN: 9900006111
M/H: AZ02NABZ01350100000000022944
S.W.İ.F.T: AZRTAZ22

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

-tenderdə iştirak etmək üçün yazılı müraciət;
-tenderdə iştirak haqqının ödənilməsi barəsində bank sənədi;
-tender təklifi (zərflərin açıldığı gündən ən azı 40 bank günü qüvvədə olmalıdır);
-tender təklifi qiymətinin 2%-i həcmində (təklifin təminatı) bank zəmanəti (zərflərin açıldığı gündən ən azı 70 bank günü müddətində qüvvədə olmalıdır);
-iddiaçının son bir il ərzindəki maliyyə vəziyyəti haqqında bank arayışı;
-iddiaçının son bir il ərzindəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının sürəti;
-Azərbaycan Respublikasında vergilərə və digər ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanı tərəfindən arayış;
-iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
-müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (Tender təklifi və bank zəmanəti istisna olunmaqla) 14 yanvar 2019-cu il tarixinə, saat 18:00-a qədər, tender təklifi və bank zəmanəti möhürlənmiş, ikiqat zərfdə 22 yanvar 2019-cu il tarixinə, saat 17:00-a qədər Bakı şəhəri, M.Rəfili küçəsi 20, ünvanına "İcraya Nəzarət, Kargüzarlıq və Təsərrüfat İşləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 yanvar 2019-cu il saat 15:00-da "Bakı Metropoliteni" QSC-nin akt zalında, Tender Komissiyasının iclasında, Bakı ş., M.Rəfili küç, 20 ünvanında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri Tender Komissiyasının iclasında iştirak edə bilərlər.

Tender Komissiyası.

## Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxana 2018-ci il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:

Fasad və pəncərələrin yuyulması və təmizlənməsi işləri.

**2.** Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan ilkin sənədlər 06 dekabr 2018-ci il (saat 11.00) tarixinədək qəbul olunur.

**3.** Tələb olunan sənədlər:
- Nizamnamənin surəti
- Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə)
- Vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- Kotirovka təklifi.

**Ünvan: AZ1001, Bakı şəhəri, Zərgərpalan küçəsi 4. Əlaqələndirici şəxs: Ə.Qasımov, Telefonlar: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az**

**Tender Komissiyası.**

## Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi Akademik M.Cavadzadə adına Respublika Klinik Uroloji Xəstəxana 2018-ci il üçün

## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Aşağıda göstərilən xidmətlər üzrə qiymətlərin elan olunmasına dəvət edilirsiniz:

"Kommunal və kommunikasiya xidmətləri ilə bağlı digər xərclər".

**2.** Kotirovkalar sorğusunda iştirak etmək üçün tələb olunan ilkin sənədlər 06 dekabr 2018-ci il (saat 11.00) tarixinədək qəbul olunur.

**3.** Tələb olunan sənədlər:
- Nizamnamənin surəti
- Kommersiya hüquqi şəxsinin dövlət qeydiyyatı haqqında şəhadətnamənin surəti
- Kommersiya hüquqi şəxsinin rekvizitləri (möhürlənmiş və imzalanmış şəkildə)
- Vergi və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlar tərəfindən verilmiş arayışlar;
- Vergi uçotu haqqında arayış (ƏDV ödəyicisi olmayan təşkilatlar üçün);
- Kotirovka təklifi.

**Ünvan: AZ1001, Bakı şəhəri, Zərgərpalan küçəsi 4. Əlaqələndirici şəxs: Ə.Qasımov, Telefonlar: (+99412) 492-24-11; Fax: (+99412) 492-24-21, e-mail: rux@e-sehiyye.az**

**Tender Komissiyası.**

## Kənd Təsərrüfatı Nazirliyi

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bərk və yumşaq inventarların satınalınmasına dair keçirilmiş kotirovka sorğusunda iştirak etmiş iddiaçıların təklifləri qiymətləndirilmişdir. Tender komissiyasının 05 noyabr 2018-ci il tarixli yekun protokoluna əsasən "Avşaroğlu LTD" MMC qalib elan edilmiş və həmin təşkilatla 04 dekabr 2018-ci il tarixli 03/08 nömrəli satınalma müqaviləsi bağlanmışdır.

**Tarix: 05 dekabr 2018-ci il**

**Əlaqələndirici şəxs: Kamil Şirinov**

**Əlaqə üçün telefon: (012) 498 05 16 (daxili 2 27).**


# DÜNYA BUGÜN
*FAKTLAR, HADİSƏLƏR, ŞƏRHLƏR*

## ABŞ RUSİYAYA 60 GÜN VAXT VERDİ



ABŞ-ın dövlət katibi Mayk Pompeo Rusiyaya Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsindən irəli gələn öhdəliklərini yerinə yetirməsi üçün 60 gün vaxt verdiklərini bəyan edib. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

NATO-nun xarici işlər nazirləri toplantısında iştirak etmək üçün Belçikanın paytaxtı Brüsseldə olan ABŞ-ın dövlət katibi mətbuat konfransda Rusiyanın Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsi ilə bağlı irəli gələn öhdəliklərini yerinə yetirmədiyini bildirərək deyib: "Rusiya müqavilənin şərtlərini pozarkən mümkün qədər səbirli davrandıq və onu öhdəlikləri yerinə yetirməyə çağırdıq".

Mayk Pompeo Rusiyanın orta mənzilli "SSC-8" raketləri istehsal edərək sözügedən müqaviləni əsaslı şəkildə pozduğunu vurğluayıb. O deyib: "Rusiya silahlara nəzarət öhdəliyi məsələsində hiyləyə əl atır. Yeni raketlər Avropa üçün birbaşa təhdiddir. Rusiyanın addımları ABŞ və müttəfiqlərimizin təhlükəsizliyinə ciddi şəkildə xələl gətirir. Rusiyanın bu fəaliyyətlərindən sonra ABŞ üçün müqavilədə qalmaq mənasını itirmişdir. Rusiyanın Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsinə riayət etməsi üçün 60 gün vaxtı var".

Eyni zamanda, Mayk Pompoe 60 gün ərzində ABŞ-ın müqavilə çərçivəsində heç bir raket sistemi istehsal və test etməyəcəyini, müqavilədən çıxmaq üçün 6 aylıq xəbərdarlıq müddətinin isə 60 gün sonra başlayacağını bildirib.

ABŞ-ın dövlət katibi həmçinin rəsmi Moskvanı "qeyri-qanuni fəaliyyətdə" günahlandırıb və Rusiyanın müqaviləni pozan raket sisteminin 2017-ci ilədək qəbul edilmədiyini vurğulayıb.

Xatırladaq ki, ABŞ prezidenti Donald Tramp ötən ay Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsinin birtərəfli şəkildə ləğv edilməsi barədə qərar qəbul etdiyini açıqlamışdı. Tramp həmçinin Rusiyanın illərdir qadağan olunan silahlar istehsal edərək müqaviləni pozduğunu bildirmişdi.

ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə məsləhətçisi Con Bolton Moskvaya səfəri zamanı Rusiya prezidenti Vladimir Putini ABŞ-ın sözügedən müqavilədən çıxma qərarı ilə bağlı şəxsən məlumatlandırmışdı.

## BMT-də İRANLA BAĞLI MÜZAKİRƏLƏR KEÇİRİLİB



BMT-nin Təhlükəsizlik Şurasında ballistik raket sınağı keçirməkdə ittiham edilən İran müzakirəyə səbəb olub. "Sputnik" informasiya agentliyinin məlumatına görə, Böyük Britaniya və Fransanın tələbi ilə toplanan Təhlükəsizlik Şurasının iclası qapalı keçirilib.

Eyni zamanda, verilən xəbərə görə, ABŞ raket sınaqlarına görə İranın qınanılması çağırışını edib. İran isə raketlərdə nüvə başlığından istifadə olunduğu iddialarını təkzib edib.

Məlumata əsasən, ABŞ-ın BMT-dəki daimi nümayəndəsi Nikki Heyli İranın son ballistik raket sınağının təhlükəli və narahatlığa səbəb olduğunu bildirib. O, Tehranın bu hərəkətinin pislənilməsi üçün çağırış edib.

Böyük Britaniyanın BMT-dəki daimi nümayəndəsi Karen Pirs isə İranın raket sınağının Şuranın qərarına zidd olduğunu vurğulayıb. O deyib: "Şuranın qərarı İrana nüvə silahı başlıqları daşıma gücünə malik ballistik raketlərlə bağlı fəaliyyət göstərməsi qadağa qoyur".

Bununla yanaşı, ABŞ-ın dövlət katibi Mayk Pompeo deyib: "Bu raket İranın Avropanın bir hissəsini və Yaxın Şərqdə hər hansı bir yeri vurma gücünə sahibdir. Bu sınaq BMT TŞ-nin qətnaməsini pozur. Nüvə silahı daşıma gücünə malik ballistik raketlərlə bağlı İranı dərhal buna son qoymağa çağırırıq".

## TEHRAN ŞƏHƏRİ HƏR İL 25 SANTİMETR ÇÖKÜR



İranın Tikinti və Yaşayış Araşdırmaları Mərkəzinin alimləri "Nature" jurnalında dərc etdikləri məqalədə paytaxt Tehran və ətrafının çökməsinə dair araşdırmaları ilə bağlı məlumatı bölüşüblər. Bu barədə "TRT" telekanalı xəbər verib.

2003-2017-ci illər arasında peyk fotoşəkillərini araşdıran İran alimləri şəhər mərkəzinin 10 və şimal-qərbini əhatə edən bölgənin hər il 25 santimetr yerə batdığını müəyyən ediblər.

Ani batma nəticəsində şəhərdəki yol və binalarda çatlar, kənd yerlərində isə torpaqda dərin çuxurlar əmələ gəldiyi qeyd olunub. Bildirilir ki, Tehran yaxınlığında ani çökmə zamanı açılan bir çuxura düşən əkinçi saatlarla yerin altında qalmalı olub.

Məlumata görə, alimlər həmçinin yağış sularının tarla kənarlarında dərin gölməçələr əmələ gətirməsi, şumlanmış torpağın kifayət qədər suvarılması və məhsul əldə edilməsinə mənfi təsir göstərdiyini qeyd ediblər.

Eyni zamanda, alimlər bölgədə yer çökməsi səviyyəsinin yüksəlməsini artan əhalinin tələbatını ödəmək üçün tikilən bəndlər, su qıtlığı və icazəsiz qazılan su quyularının yeraltı suların tükənməsinə səbəb olması ilə izah edir.

Bununla yanaşı, mütəxəssislərin sözlərinə görə, yeraltı su yataqlarının batma və uçqunlarla dolması yenilənmə imkanlarını azaldır.

Məlumat üçün qeyd edək ki, 15 milyon əhalisi olan Tehran Asiya qitəsinin ən böyük meqapolis şəhərlərindən biri sayılır.

## NATO-nun BAŞ KATİBİ RUSİYAYA YENİDƏN ÇAĞIRIŞ EDİB



Yens Stoltenberq Rusiyanın son dövrdəki davranışlarının qeyri-sabitliyi artırdığına diqqət çəkib. Bu barədə "TRT" telekanalı xəbər verib. Məlumata görə, NATO-nun xarici işlər nazirlərinin görüşü ərəfəsində mətbuata açıqlamalar verən alyansın baş katibi Yens Stoltenberq toplantının əsas müzakirə mövzuları—Rusiya-Ukrayna arasındakı gərginlik, Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsi, Yaxın Şərq və Şimali Afrikadan gələn təhlükəsizlik təhdidləri, Əfqanıstan və Balkan ölkələri olacağını bildirmişdi.

Rusiyanın son dövrdəki davranışlarının qeyri-sabitliyi artırdığına diqqəti çəkən Stoltenberq bunun xüsusilə Rusiyanın Azov dənizində zorakılıq tətbiq etməsi, ukraynalı gəmi və dənizçiləri saxlaması ilə yenidən açıq şəkildə göründüyünü dilə gətirib.

Yens Stoltenberg deyib: "NATO Rusiyaya dərhal ukraynalı gəmi və dənizçiləri sərbəst buraxması üçün çağırış edir".

NATO müttəfiqlərinin Rusiyanın inkişaf etdirdiyi yeni raket sistemindən də narahat olduğunu və bununla Orta və Yaxınmənzilli Raketlərin Ləğvi Müqaviləsini pozduğunu qeyd edən Yens Stoltenberq Rusiyaya "şəffaf və təsdiq olunan" şəkildə bu müqaviləyə riayət etmək çağırışını bir daha təkrarlayıb.

Xatırladaq ki, noyabrın 25-də Azov dənizində Rusiyaya məxsus döyüş gəmiləri ilə Ukrayna döyüş gəmilərinin heyətləri arasında qarşıdurma baş vermişdi. Rusiya gəmiləri ölkənin su ərazisinə girməsi iddiası ilə Ukrayna gəmilərinə müdaxilə etmişdi.

## YADPLANETLİLƏRİN YERƏ SƏFƏRLƏRİ İLƏ BAĞLI İDDİA



ABŞ-ın Milli Aeronavtika və Kosmos İdarəsinin (NASA) ağıllı sistemlər bölməsinin əməkdaşı Silvano Kolombano yadplanetlilərin Yer kürəsinə səfərlərinə dair iddia irəli sürüb. Bu barədə "TRT" telekanalı məlumat yayıb.

Dünyadankənar həyat haqqındakı mövcud dünyagörüşünün çox dar olduğunu qeyd edən Kolombano üstün xüsusiyyətləri olan yad bir həyat növündən Yer kürəsinə edilmiş bir səfərin gözdən yayındığını bəyan edib.

Eyni zamanda, tədqiqatçı bunun ənənəvi həyatdan çox fərqli ola biləcəyini vurğuladı.

Məlumata görə, tədqiqat işini "Decoding Alien Intelligence" konfransında təqdim edən Kolombano bu son dərəcə kiçik və yüksək intellektli varlıqların bəşəriyyətin əldə etdiyi texnoloji imkanlardan çox irəli getdikləri və hətta ulduzlararası səfərlərdə professional bir səviyyəyə çatdıqları barədə tezis irəli sürüb.

Bununla yanaşı, Silvano Kolombanonun fikrincə, sivilizasiyamızın texnoloji inkişaf yoluna təxminən 10 min il əvvəl qədəm basdığı və yalnız son 500 ildə elmi metodların yüksəlişinin müşahidə olunduğu nəzərə alınarsa, qarşıdakı min il ərzində belə bir texnoloji səviyyənin əldə olunması mümkün deyil.

Verilən xəbərə əsasən, gələcəkdə radiodalğaların da aktuallığını itirə biləcəyinə diqqət çəkən Silvano Kolombano fizikləri ən etibarlı nəzəriyyələrə əsaslanaraq yadplanetlilər faktını tədqiq etmək üçün "spekulyativ fizika"ya yönəlməyə dəvət edib. ■

## Azərbaycan Respublikası Təhsil Nazirliyi
## Azərbaycan Texnologiya Universiteti (UTECA)

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2018-ci il tarixli, 774s nömrəli Sərəncamı ilə təsdiq olunmuş plana əsasən, 2018-2019-cu tədris ili üçün fəlsəfə doktoru proqramı üzrə doktoranturanın əyani və qiyabi şöbəsinə və dissertanturaya, elmlər doktoru proqramı üzrə dissertanturaya qəbul elan edir.***

***Fəlsəfə doktoru proqramı üzrə***

| № | İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Doktoranturaya qəbul planı | | | | |
|---|---|---|---|---|---|---|---|
| | | | Cəmi | o cümlədən | | | |
| | | | | Büdcə hesabına | | Ödənişli əsaslarla | |
| | | | | əyani | qiyabi | əyani | qiyabi |
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
| | **33** | ***Texnika elmləri*** | | | | | |
| 1 | 3325.01 | Telekommunikasiya texnologiyası | 1 | 1 | | | |
| 2 | 3309.01 | Qida məhsullarının texnologiyası | 1 | | | 1 | |
| 3 | 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | 1 | | | |
| 4 | 3326.01 | Toxuculuq və yüngül sənaye materiallarının və məhsullarının texnologiyası | 1 | 1 | | | |
| | **53** | ***İqtisad elmləri*** | | | | | |
| 5 | 5308.01 | Ümumi iqtisadiyyat | 1 | | | | 1 |
| 6 | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 2 | 1 | 1 | | |
| 7 | 5312.01 | Sahə iqtisadiyyatı | 2 | | 1 | 1 | |
| | | ***Cəmi:*** | 9 | 4 | 2 | 2 | 1 |

| № | İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Dissertanturaya qəbul planı | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | o cümlədən | |
| | | | | Büdcə hesabına | Ödənişli əsaslarla |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | **33** | ***Texnika elmləri*** | | | |
| 1 | 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 | | 1 |
| 2 | 3309.01 | Qida məhsullarının texnologiyası | 1 | 1 | |
| 3 | 3313.02 | Maşınlar, avadanlıqlar və proseslər | 1 | | 1 |
| | **53** | ***İqtisad elmləri*** | | | |
| 4 | 5308.01 | Ümumi iqtisadiyyat | 1 | | 1 |
| 5 | 5311.01 | Müəssisələrin təşkili və idarə olunması | 1 | | 1 |
| 6 | 5312.01 | Sahə iqtisadiyyatı | 3 | 1 | 2 |
| | | ***Cəmi:*** | 8 | 2 | 6 |

***Elmlər doktoru proqramı üzrə***

| № | İxtisasın şifri | Elm sahələri və ixtisaslar | Dissertanturaya qəbul planı | | |
|---|---|---|---|---|---|
| | | | Cəmi | o cümlədən | |
| | | | | Büdcə hesabına | Ödənişli əsaslarla |
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| | **33** | ***Texnika elmləri*** | | | |
| 1 | 3309.01 | Qida məhsullarının texnologiyası | 1 | 1 | |
| | | ***Cəmi:*** | 1 | 1 | |

***Qəbul qaydaları:***

**1.** Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

**2.** Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim olunmalıdır:

***- ərizə (doktorantura və dissertantura təhsilini həyata keçirən universitet rektorunun adına yazılır);***

***-kadrların şəxsi qeydiyyat vərəqi;***

***-tərcümeyi-hal;***

***-2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);***

***-iş yerindən xasiyyətnamə (işləyənlər üçün);***

***-əmək kitabçasının surəti (iş stajı olanlar üçün);***

***-çap olunmuş elmi və metodiki əsərlərin siyahısı və onların ottiski və ya seçilmiş ixtisas üzrə 20-25 səhifəlik referat;***

***-ali təhsil haqqında diplomların (diplomun) və qiymət cədvəllərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (xarici ölkələrdə təhsil almış vətəndaşlar üçün təhsil haqqında sənədin tanınması haqqında şəhadətnamə);***

***-fəlsəfə doktoru (elmlər namizədi) diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti (elmlər doktoru proqramı üzrə sənəd verənlər üçün);***

***-xarici dil bilikləri üzrə beynəlxalq sertifikat (əgər varsa);***

***-şəxsiyyəti təsdiq edən sənədin surəti;***

**3.** Fəlsəfə doktoru proqramı üzrə doktoranturanın əyani şöbəsinə qəbul olunmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura və bakalavr səviyyəsi üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

**4.** Hər imtahan başa çatdıqdan sonra onun nəticəsi elan olunur. Birinci imtahandan (ixtisas fənnindən) kafi qiymət alan şəxslər növbəti imtahanlara buraxılmırlar.

**5.** Doktoranturaya və dissertanturaya qəbul Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1 iyul 2010-cu il tarixli 129 nömrəli doktoranturaların yaradılması və doktoranturaya qəbul qaydalarına müvafiq olaraq aparılır.

**6.** Doktoranturaya və dissertanturaya sənədlərin qəbulu 05 dekabr 2018-ci il tarixindən 28 dekabr tarixinədək hər gün (şənbə və bazar günləri istisna olmaqla) saat 10:00-dan 17:00-dək "Magistratura və doktorantura" şöbəsində qəbul edilir.

**7.** Qəbul imtahanları 2019-cu il yanvar ayının 08-dən 18-dək keçiriləcəkdir.

**Əlaqələndirici şəxs:** *Sadiq Əfəndiyev*

**Tel.:** *(+99455) 716-05-07*

**Ünvan:** *Gəncə şəhəri, Ş.İ.Xətai pr. 103, 3-cü korpus, otaq № 3112.*

---

TƏKRAR

## Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu
## AÇIQ TENDER ELAN EDİR

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 08.06.2011-ci il tarixli 149s №-li Sərəncamı ilə "Tədbirlər Planı" təsdiq edilmiş və "Dövlət Proqramı"na edilmiş əlavələrə əsasən Dövlət Neft Fondunun vəsaiti hesabına məcburi köçkünlərin müvəqqəti məskunlaşdırılması məqsədi ilə qəsəbələrin, çoxmərtəbəli binaların, fərdi yaşayış evlərinin layihələndirilməsi və onların tikintisi ilə bağlı işlərin həyata keçirilməsi MKSİF-ə həvalə olunmuşdur.

**Lot 1.** "Göyçay rayonu ərazisində məcburi köçkün ailələri üçün zəruri texniki infrastrukturu olan 80 mənzilli yaşayış binasının tikintisi"

**İştirak haqqı: 200 (iki yüz) manat;**

MKSİF yuxarıda göstərilən tikinti işi üzrə iştirak hüququ olan iddiaçıları möhürlənmiş zərflərdə tender təklifləri təqdim etməyə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, öz tender təkliflərini möhürlənmiş,imzalanmış, ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Tenderdə iştirak etmək istəyənlər yuxarıda göstərilən məbləğlərdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin əsas şərtlər toplusunu Bakı şəhəri, Tbilisi prospekti 57D, (MKSİF) ünvanından, tel.: (+99421) 4318703, 4318769) ala bilərlər.

*Təşkilat: "Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu"*
*VÖEN-i: 1400305341*
*Dövlət Xəzinədarlığı Agentliyi*
*VÖEN (bank): 1401555071*
*Hesab nömrəsi: AZ29CTRE00000000000005728225*
*Müxbir hesab: AZ41NABZ01360100000000003944*
*Kod: 210005*
*S.W.İ.F.T.: CTRE AZ 22*
*Təsnifat kodu: 142340*
*Büdcə səviyyəsinin kodu: 7*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*- tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*- iştirak haqqının ödənilməsini təsdiq edən bank sənədi;*

*- iddiaçının tam adı, hüquqi statusu, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

*- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 90 bank günü qüvvədə olmalıdır);*

*- tender təklifi qiymətinin 2%-i həcmində bank qarantiyası (tender təklifinin qarantiyasının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olması müddətindən 30 (otuz) bank günü çox olmalıdır);*

*- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında arayış;*

*- iddiaçının son bir ildəki maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;*

*- tender iştirakçılarının (iddiaçıların) son 3 (üç) ildə yerinə yetirdikləri analoji işlərinin dəyəri tender predmetinin qiymətinə müvafiq olmalıdır;*

*-iddiaçının müvafiq tikinti işlərinin görülməsinə olan xüsusi icazə (lisenziya) sənədinin surəti;*

*- iddiaçının mülkiyyətində olan maşın, mexanizm və avadanlıqların növü və xüsusiyyətləri haqqında arayış;*

*- iddiaçının ixtisas göstəriciləri haqqında məlumat.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyası istisna olmaqla) 20 dekabr 2018-ci il saat 18.00-a qədər, tender təklifi, tikinti işlərinin qrafiki və bank qarantiyasını isə möhürlənmiş ikiqat zərfdə 7 yanvar 2019-cu il saat 18.00-a qədər Bakı şəhəri, Tbilisi prospekti 57D (MKSİF) ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təklifləri 8 yanvar 2019-cu il tarixdə, saat 16.00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

**TENDER KOMİSSİYASI.**

---

## AZƏRİTTİFAQ
## AZƏRBAYCAN KOOPERASİYA UNİVERSİTETİ
### *2018-ci il üçün fəlsəfə və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya aşağıdakı ixtisaslar üzrə*
## QƏBUL ELAN EDİR

***Fəlsəfə doktoru hazırlığı üzrə***

***Doktorantura:***

***Əyani şöbə:***

5301.01 - Daxili fiskal siyasət və dövlət maliyyəsi - 1 yer
5308.01 - Ümumi iqtisadiyyat - 1 yer

***Qiyabi şöbə:***

5303.01 - Mühasibat uçotu - 1 yer
5304.01 - İqtisadi fəaliyyət növləri - 2 yer
5308.01 - Ümumi iqtisadiyyat - 1 yer
5310.01 - Dünya iqtisadiyyatı - 1 yer
5312.01 - Sahə iqtisadiyyatı - 2 yer

***Dissertantura:***

5303.01 - Mühasibat uçotu - 1 yer
5304.01 - İqtisadi fəaliyyət növləri - 1 yer
5308.01 - Ümumi iqtisadiyyat - 1 yer
5312.01 - Sahə iqtisadiyyatı - 1 yer

Doktorantura və dissertanturaya ali təhsili olan (ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan) Azərbaycan Respublikasının vətəndaşları qəbul olunurlar.

Doktoranturada əyani təhsil müddəti 3 il, qiyabi 4 il, dissertantura yolu ilə 4 ildir.

***Fəlsəfə doktoru proqramı üzrə doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:***

- Rektorun adına ərizə;
- Kadrların şəxsi-qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- İş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- Ali təhsil müəssisəni bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;

Fəlsəfə doktoru proqramı üzrə doktoranturaya qəbul olmaq istəyənlər ixtisas fənnindən, xarici dildən və fəlsəfədən ali təhsil pilləsinin magistratura üçün qüvvədə olan tədris proqramları həcmində qəbul imtahanları verirlər.

Dissertanturaya qəbul müsahibə yolu ilə aparılır.

***Elmlər doktoru hazırlığı üzrə doktorantura:***

***Qiyabi şöbə:***

5308.01 - Ümumi iqtisadiyyat - 1 yer
5312.01 - Sahə iqtisadiyyatı - 1yer

***Elmlər doktoru proqramı üzrə doktoranturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:***

- Rektorun adına ərizə;
- Kadrların şəxsi-qeydiyyat vərəqi;
- Tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- İş yerindən xasiyyətnamə;
- Əmək kitabçasından çıxarış;
- Çap olunmuş elmi işlərin siyahısı;
- "Fəlsəfə doktoru" və ya "Elmlər namizədi" elmi (alimlik) dərəcəsi diplomunun müvafiq qaydada təsdiq edilmiş surəti;
- Ali təhsil müəssisəni bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- Şəxsiyyəti təsdiq edən sənədin surəti;

Fəlsəfə və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturaya sənədlər 2018-ci il 5 dekabrdan 2019-cu il yanvar ayının 5-nə kimi qəbul edilir. Doktoranturaya qəbul imtahanları 2019-cu il yanvar ayının 10-dan 30-dək keçiriləcəkdir.

Fəlsəfə doktoru və elmlər doktoru proqramı üzrə doktorantura və dissertanturada təhsil ödənişsiz əsaslarla aparılır.

Sənədlər Azərbaycan Kooperasiya Universitetinin Doktorantura və Magistratura şöbəsində hər gün saat 9:00-dan 17:00-dək qəbul olunur.

**Ünvan:** *Bakı şəh. Nərimanov rayonu, Nəcəf Nərimanov küçəsi, 93.*

**Əlaqə telefonları:**
(012) 562-25-43
(012) 562-74-24.

**Rektorluq.**

---

## Azərbaycan Memarlıq və İnşaat Universiteti
## AÇIQ TENDER ELAN EDİR

**Azərbaycan Memarlıq və İnşaat Universitetində**

**LOT-1 "Digər alış və xidmətlər" (VTS test imtahan proqram sisteminə xidmət)**

**LOT-2 Universitetdə Mühafizə xidməti işləri üzrə tender elan edir.**

Tender iştirakçılarına təklif olunur ki, "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq, yuxarıda göstərilən işlər üzrə tender təkliflərini möhürlənmiş şəkildə ikiqat bağlamada yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilələrin vaxtında yerinə yetirilməsi, analoji işlərində təcrübəsi, maliyyə vəziyyəti.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarna malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT-1 üzrə 100 (yüz); LOT-2 üzrə 100 (yüz) AZN məbləğində iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində əsas Şərtlər toplusunu Ayna Sultanova küçəsi, 11 ünvanında yerləşən Azərbaycan Memarlıq və İnşaat Universitetindən (Əlaqələndirici şəxs: V.R.Ələkbərovdan, telefon: 538-75-07) ala bilərlər.

**İştirak haqqı bu hesaba köçürülməlidir:**

*Azərbaycan Memarlıq və İnşaat Universiteti*
*Ünvan: AZ 1073, Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11*
*VÖEN: 1300430721*
*H/h: AZ36AİİB33070019443307889103*
*Kapital Bank Yasamal filialı*
*KOD - 200037, VÖEN: 9900003611*
*M/h: AZ37NABZ01350100000000001944*
*S.W.İ.F.T.AİİBAZ2X*

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

*-tenderdə iştirak etmək üçün yazılı müraciət;*

*-tender təklifi (zərflərin açıldığı gündən ən azı 30 bank günü qüvvədə qalmalıdır);*

*-tender təklifi dəyərinin 1 faiz həcmində bank təminatı (zərflərin açıldığı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*

*-Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq orqanlardan arayış;*

*-Son 1 (bir) il ərzində fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*

*- iddiaçının son 1(bir) il ərzində maliyyə vəziyyəti haqqında bank tərəfindən verilmiş arayış;*

*- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*

*- müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan sənədlər Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət Satınalmaları haqqında" Qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 yanvar 2019-cu il saat 15:00-a qədər, tender təklifi və bank zəmanətini isə möhürlənmiş 2 qat zərfdə 22 yanvar 2019-cu il saat 17:00-a qədər Azərbaycan Memarlıq və İnşaat Universitetinə (ünvan: Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11) Telefon: 538-75-07 təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 23 yanvar 2019-cu il saat 11:00-da Bakı şəhəri, Ayna Sultanova küçəsi, 11 ünvanındakı 307 saylı otaqda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri tenderdə iştirak edə bilərlər.

**Tender Komissiyası.**

---

## "Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu 2018-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktorantura və dissertanturaya qəbul elan edir.

"Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutunda 2018-ci il üçün fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul Nazirlər Kabinetinin təsdiqlədiyi plana əsasən aparılacaqdır.

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 129 №-li 01 iyul 2010-cu il tarixli qərarına uyğun olaraq, fəlsəfə doktoru proqramı üzrə doktoranturaya və dissertanturaya (ali təhsili olan ali təhsil pilləsinin magistratura səviyyəsini bitirən, yaxud təhsili ona bərabər tutulan mütəxəssislər) Azərbaycan Respublikasının vətəndaşları müsabiqə əsasında qəbul olunurlar.

İnstitutda fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya qəbul aşağıdakı ixtisaslar üzrə aparılacaq:

| İxtisasın şifri | İxtisasın adı | Fəlsəfə doktoru hazırlığı üzrə | | | |
|---|---|---|---|---|---|
| | | doktoranturaya qəbul planı | | dissertanturaya qəbul planı | |
| | | cəmi | büdcə hesabına qiyabi | cəmi | büdcə hesabına |
| 3305.05 | Mühəndis-kommunikasiya sistemləri | 1 | 1 | 1 | 1 |
| 3308.01 | Ətraf mühitin texnologiyası və mühəndisliyi | 1 | 1 | 2 | 2 |
| 5406.01 | Hidrologiya | 2 | 2 | 1 | 1 |
| Yekun | | 4 | 4 | 4 | 4 |

Fəlsəfə doktoru hazırlığı üzrə doktoranturaya və dissertanturaya sənədlər 10 dekabr 2018-ci il tarixindən 07 yanvar 2019-cu il tarixinədək hər gün (şənbə, bazar və bayram günləri istisna olmaqla) saat 09:00-dan 18:00-dək qəbul ediləcək.

Doktorantura və dissertanturaya qəbul üçün aşağıdakı sənədlər təqdim edilir:

- ərizə (institutun direktorunun adına);
- kadrların şəxsi-qeydiyyat vərəqi;
- tərcümeyi-hal;
- 2 ədəd fotoşəkil (3x4 sm ölçüdə);
- iş yerindən xasiyyətnamə;
- iş stajı olanlar üçün əmək kitabçasından çıxarış;
- çap olunmuş elmi işlərin siyahısı və ya seçilmiş ixtisas üzrə referat;
- ali təhsil müəssisəsini bitirmək haqqında diplomun müvafiq qaydada təsdiq edilmiş surəti (xarici ölkələrdə təhsil almış Azərbaycan Respublikasının vətəndaşları üçün təhsil haqqında sənədlərin tanınması haqqında şəhadətnamə);
- şəxsiyyəti təsdiq edən sənədin surəti.

Fəlsəfə doktoru proqramı üzrə doktorantura (qiyabi) və dissertanturada təhsil müddəti 4 ildir.

**Sənəd qəbulu:** "Azərsu" ASC-nin "Sukanal" Elmi-Tədqiqat və Layihə İnstitutu, Doktorantura şöbəsi

**Ünvan:** *AZ1012, Bakı, Azərbaycan, Moskva prospekti, 73*

**Tel./Faks:** *(+99412) 430-19-90 (Qəbul otağı)*

**Telefon:** *(+99412) 430-08-25 (2743)*
*(+99412) 430-08-35 (2743).*

---

## BİLDİRİŞ

"Azərbaycan Yaşıllaşdırma və Landşaft Quruluşu" ASC qazon örtüyü, dekorativ ağac və güllər, digər abadlıq vəsaitləri alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 424-32-83 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər.

Kotirovkalar sorğusunda iştirak etmək üçün sənədlər 10.12.2018-ci il saat 18-00 tarixinədək qəbul olunur.

**Ünvan:** *Bakı şəhəri, Nobel prospekti 61.*

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

Balakən Rayon İcra Hakimiyyəti tərəfindən 06.10.2018, 16.10.2018, 16.11.2018-ci il tarixli elan edilmiş açıq tender proseduru üzrə iddiaçılardan daxil olmuş təkliflərin qiymətləndirilməsi həyata keçirilmişdir. "Kommunal təyinatlı texnika və konteynerlərin" satınalınması üzrə "Capital Motors" MMC qalib elan edilmiş və onunla 05 dekabr 2018-ci il tarixində ƏDV daxil 259897.36 (iki yüz əlli doqquz min səkkiz yüz doxsan yeddi manat 36 qəpik) manat dəyərində müvafiq satınalma müqaviləsi bağlanmışdır

**Balakən Rayon İcra Hakimiyyətinin Tender Komissiyası.**

---

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən "istifadə olunacaq bütün növ mal və materialların" və "digər maşın və avadanlıqların" elan olunmuş kotirovka sorğularının siyahılarında dəyişikliklər səbəbindən satınalma müsabiqələri ləğv edilir.

---

## Füzuli Rayon Gənclər və İdman İdarəsi
## KOTİROVKA SORĞUSU ELAN EDİR

**1.** Füzuli Rayon Gənclər və İdman İdarəsi və Rayon İcra Hakimiyyətinin İctimai-Siyasi və Humanitar məsələlər şöbəsinin birlikdə təşkil etdiyi "Qeyri-ənənəvi dini cərəyanların təbliğatının qarşısının alınması və dini radikalizmə qarşı mübarizədə yeniyetmə və gənclər arasında Füzuli rayon Gənclər və İdman İdarəsinin rolu" mövzusunda tədbirin keçirilməsi

**2.** "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü" və "Yeni il" münasibəti ilə stadionda böyük bayram konsertinin keçirilməsi.

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 07.12.2018-ci il tarixədək qəbul olunur.

Əlaqə telefonu: Elnur Məmmədov 050-457-15-15

**Tender Komissiyası.**

---

## BİLDİRİŞ

"AzerGold" QSC tərəfindən "Ölkədaxili açıq məkanda reklam xidmətinin satın alınması" üçün 01 noyabr 2018-ci il tarixində elan edilmiş açıq tender üzrə iştirakçıların sayı 3 (üç)-dən az olduğu üçün ilkin sənədlərin (tender təklifi və təklifin təminatı istisna olmaqda digər sənədlər) qəbulu tarixi 12 dekabr 2018-ci il saat 15.00-dək, tenderə təkliflərin və təkliflərin təminatı sənədlərinin qəbulu isə 20 dekabr 2018-ci il saat 15.00-dək uzadılır. Sənədlər möhürlənmiş, imzalanmış və ikiqat zərfdə olmaqla təqdim olunmalıdır. Tender üzrə təklif zərflərinin açılışı 21 dekabr 2018-ci il tarixində saat 15.00-da Bakı şəhəri, Səbail rayonu, Mikayıl Müşfiq 2H ünvanında keçiriləcəkdir.

**"AzerGold" QSC, Tender Komissiyası.**

---

Lənkəran rayon aqrar islahat komissiyasının 6 iyul 1997-ci il tarixli 18 nömrəli qərarı ilə Mamusta kənd sakini Əkbərov Feyzulla Murtaza oğluna verilmiş Torpağa mülkiyyət hüququna dair Dövlət Aktı (JN 706; KOD 80214018) itdiyi üçün etibarsız sayılır.

Hadıyev Anar Adəm oğlunun adına məxsus, Bakı şəhəri, Tbilisi prospekti 1054, bina 5, mən. 16 ünvanına "Yeni həyat Şirkətlər Qrupu" MMC-nin "Grand Həyat" layihəsi tərəfindən verilmiş müqavilə və maliyyə arayışı itdiyi üçün etibarsız sayılır.

Quliyev Rəhim Bəybala oğluna Azərbaycan Respublikası Vergilər Nazirliyi tərəfindən verilmiş xidməti vəsiqə (N034081) itdiyi üçün etibarsız sayılır.

Quba rayonu, İsnovqışlaq kəndində yerləşən torpaq sahəsinə Hüseynova Azərə Nizami qızının adına verilmiş daşınmaz əmlakın Dövlət reyestrindən çıxarışlar (reyestr nömrələri: 303013010856, 303013010604) və texniki pasportlar itdiyi üçün etibarsız sayılır.

---

## ALLAH RƏHMƏT ELƏSİN

**Abşeron Rayon Mərkəzi Xəstəxanasının Təcili Yardım Şöbəsinin kollektivi iş yoldaşları Aygün xanıma, atası**
**MƏNSUR müəllimin**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Samuxdan Alı Qocayev Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseyinliyə, atası**
**MƏHƏMMƏD HÜSEYİNOVUN**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

**Azərbaycan Memarlıq və İnşaat Universitetinin əməkdaşları Zakir Musayev, Aqşin Kərimov, Tahirə Haqverdiyeva, Elçin Yusifzadə, Mansur Zərbəliyev, Nurməmməd Məmmədov, Fəqan Əliyev, Elbrus Paşayev, Fuad Lətifov və Elgiz Həsənov AzMİU-nun rektoru, professor Gülçöhrə xanım Məmmədovaya, əzizi**
**FATMA xanımın**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**AzMİU-nun Su təsərrüfatı və mühəndis-kommunikasiya sistemləri fakültəsinin əməkdaşları Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru, professor Gülçöhrə xanım Məmmədovaya, əzizi**
**FATMA xanımın**
**vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.**

**Göygöl Suvarma Sistemlər İdarəsinin rəisi İlqar Məhərrəmov Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin Audit şöbəsinin müdiri Vüqar Hüseynova, anası**
**MİNARƏ xanımın**
**vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.**

Baş redaktor
Teymur ƏHMƏDOV

● Redaksiyanın telefonları:
İqtisadiyyat və islahatlar redaksiyası: **539-95-51;**
Siyasət, ictimai problemlər və analitik təhlil redaksiyası: **538-55-20;**
Beynəlxalq əlaqələr, dövlət quruculuğu və hüquq redaksiyası: **539-26-18;**
Humanitar siyasət redaksiyası: **538-25-70;**
Xəbərlər redaksiyası: **538-61-02;**
İctimai rəy və sosial problemlər redaksiyası: **539-95-51; 538-43-41 tel/faks;**
Qəbul otağı: **538-25-70;**
Katiblik: **538-25-70;**
Reklam və elan xidməti: **441-20-23.**




● Redaksiyanın ünvanı:
AZ1073, Bakı
Mətbuat prospekti, 529-cu məhəllə, VII mərtəbə.
**E-mail:** resp@azdata.net
www.respublica-news.az
*"Respublika" qəzetinin kompyuter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.*
Qeydiyyat № 7.

İndeks 0240
Tiraj 4292
Sifariş 023
Qəzetin satış qiyməti 40 qəpik

Məsul növbətçi
Hümmət MUSAYEV

● Çapa imzalanmışdır
05.12.2018